# DÜŞÜNƏN İNSAN

№ 29 - Fevral 2014 - 2 AZN


# Şərq və Qərb Cəmiyyətlərində Cəhalət və İslamofobiya








- Həyati əhəmiyyətli element: fosfor
- Allah yolunda malından sərf etməyin hikmətləri
- Demokratiyanın əsas prinsipləri Quranda bildirilib
- Dünya qadına baxışı yeniləməlidir
- Görünməyən qoruyucular
- İntihar etmək haramdır
- Dinsiz millət yaşaya bilməz
- İman gətirən insanların həyatı tamamilə başqa cür olur
- Dilin təkamül düyünü
- Fosillər təkamülü təkzib edir

# DÜŞÜNƏN İNSAN


| | | | |
|---|---|---|---|
| Elmi-texnoloji xəbərlər | 4 | Fosillər təkamülü təkzib edir | 32 |
| İslam dünyasında keçən ay | 6 | Dinsiz millət yaşaya bilməz | 36 |
| İntihar etmək haramdır | 8 | Demokratiyanın əsas prinsipləri Quranda bildirilib | 40 |
| Dilin təkamül düyünü | 10 | Dünya qadına baxışı yeniləməlidir | 46 |
| İman gətirən insanların həyatı tamamilə başqa cür olur | 12 | Şərq və Qərb cəmiyyətlərində cəhalət və İslamofobiya | 48 |
| Allah'ın toz zərrəciklərində yaratdığı hikmətlər | 16 | Bir ayə, bir açıqlama | 53 |
| Həyati əhəmiyyətli element: fosfor | 22 | Görünməyən qoruyucular | 54 |
| Allah yolunda malından sərf etməyin hikmətləri | 26 | Müsəlmanın diqqətinin və süurunun açıq olmasına kömək edən səbəblər | 56 |



DÜŞÜNƏN İNSAN
Elmi-kütləvi, mənəvi-psixoloji jurnal
Fevral 2014; № 29
Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir.
Reyestr № 3418

Təsisçi və redaktor: Ziya Kazımov
Telefon: (077) 381 61 91
E-mail:info@dusuneninsan.az
www.dusuneninsan.az
Poçt ünvanı: AZ1000 abonent qutusu 35

Çapa imzalanma tarixi: 23.01.2014
Şərq-Qərb mətbəəsində çap edilib.
Tiraj: 600
Qiyməti: 2 manat


Yer üzündə sizin üçün yaratdığı
müxtəlif rəngli şeyləri də
(sizə ram etdi). Şübhəsiz ki,
bunda düşünüb ibrət alan
insanlar üçün dəlillər vardır.
(Bəqərə surəsi, 117)

“Xalqla iqtidar arasındakı birlik bizim inkişafımızı şərtləndirən amillərdən biridir. Biz öz yolumuzla gedirik. Bu yol inkişaf, demokratiya, milli həmrəylik yoludur.”

**İlham Əliyev**



# Elmi-texnoloji Xəbərlər

## Beyin xəstəliklərində cığır açan kəşf

Degenerativ sinir sistemi xəstəliklərində beyin toxumasının ölməsinin qarşısını alan ilk kimyəvi birləşmənin kəşfi alzeymer, parkinson və hantinqton xəstəliklərinin müalicəsi üçün tibb dünyasında həyəcana səbəb olub.

İngiltərədəki Leyçester Universitetində siçanlar üzərində keçirilən təcrübələrdə beyini süngərə çevirən prion xəstəliklərindən qaynaqlanan beyin hüceyrəsi ölümünün qarşısının alınacağı məlum olub. Təcrübələr beyin hüceyrələrinin təbii immun mexanizmi üzərində aparılır. Prion xəstəliklərə yol açan virus beyin hüceyrəsini ələ keçirdikdə viral zülalların toplanmasına səbəb olur. Buna reaksiya verən hüceyrələr virusun yayılmasının qarşısını almaq üçün zülal sintezini dayandırır. Lakin bir çox degenerativ sinir sistemi xəstəliyi xətalı zülal sintezindən irəli gəlir. Bunların da bənzər immun mexanizmini işə salması ciddi nəticələr doğurur. Beyin hüceyrələri zülal sintezini dayandırdıqda xətalı zülallar aclıqdan ölür. Bu proses beyində bütün neyronlarda təkrarlandıqda hərəkət və ya hafizə itkisinə səbəb olur, hətta ölümlə nəticələnir.

Bu prosesi dayandıran metod bir çox degenerativ sinir sistemi xəstəliyinin müalicəsində tətbiq edilə bilər. Tədqiqatçıların istifadə etdiyi kimyəvi tərkib bu immun mexanizminin işə düşməsinin və degenerasiyanın qarşısını alır.

"Science Translational Medicine" jurnalında dərc olunan tədqiqat beyini süngərə çevirən prion xəstəlikləri olan siçanlarda ciddi hafizə və hərəkət itkisinin müşahidə olunduğunu və 12 həftədə öldüklərini aşkar edib. Lakin bu kimyəvi tərkibin verildiyi siçanlarda beyin toxumasında heç bir itki müşahidə olunmayıb. Tədqiqatı aparan professor Giovanna Maluççi (Giovanna Mallucci) tərkibin sinir sistemində pozuntunun tamamilə qarşısını aldığını deyir. Maluççi bu kimyəvi tərkibin insana verilməsinin mümkün olmadığını, lakin ilk dəfə beyin pozuntusunun qarşısını almağın mümkün olduğunu göstərən mühüm başlanğıc olduğunu qeyd edib.

London Kral Kollecindən professor Rocer Morris (Roger Morris) tədqiqatla bağlı: "Bu kəşflər alzeymer xəstəliyinin nəzarətdə saxlanması və qarşısının alınmasında mühüm dönüş nöqtəsi olacaq", - deyib.



## Radar üçün ilham mənbəyi oldu



İngiltərədə delfinlərdən ilham alan mühəndislər yol kənarlarına yerləşdirilən tələləri xəbər verən yeni radar icad ediblər. Alət delfinlərin balıqların yerini müəyyən edərkən istifadə etdikləri kimi iki vuruşlu titrəyiş yayaraq işləyir. Qoşa tərs vuruşlu radar (TWIPR) bir partlayıcı maddənin içindəki elektron səslərlə ətrafındakı əlaqəsiz çoxlu sayda metalın verdiyi səsləri bir-birindən ayırd edə bilir. Yeni radar Sauthempton Universitetindən professor Tim Leytonun (Tim Leighton) rəhbərliyi altında çalışan London Universitetindən bir qrup mütəxəssis tərəfindən icad edilib. Professor Leytona delfinlərin qabarcıqlarla dolu suda ovlarını tanımaq üçün istifadə etdikləri metod ilham verib. Bəzi delfinlər izlədikləri balıq sürüsünü bir yerə toplanmağa məcbur etmək üçün qabarcıqlardan şəbəkə əmələ gətirirlər. Sonra qoşa impuls yayaraq nəyin qabarcıq, nəyin balıq olduğunu ayırd edə bilirlər. Professor Leyton həmin texnikanı radiodalğalarla sınamağa qərar verərək iki vuruşlu titrəyiş yayan sistem icad edib. Ənənəvi radarlar ancaq bir impuls yayır. Bu cihazdan isə iki impuls yayılır, ikinci impuls birincinin əks qütbündə yayılır. Ona görə də bir elektron cihaza rast gəlsə, impulsu müsbətə çevirir, bu isə güclü siqnal verməsini təmin edir. Mühəndislər radarı yol kənarlarına yerləşdirilən bombaya bənzər elektrik dövrəsi olan antena üzərində sınaqdan keçirib. Ətrafında bir çox əlaqəsiz metal vardı. Radarın antenaya aid impulsları ətrafdakı metallara aid impulslarından 100 min dəfə güclü olub. Bu cür alətin həm casusluq məqsədi ilə istifadə olunan gizli təqib cihazlarını, həm də partlayıcı tələləri üzə çıxarmaqda faydalı olacağı düşünülür. Hətta cihazı icad edən qrup zəlzələlər və ya qar uçqunu fəlakətlərində yerin altında qalan insanların mobil telefonlarının bu cihazla aşkar edilməsi ilə daha asan tapılacağına diqqət çəkir. Professor Leyton: “Belə bir texnologiya maqnetik titrəyişli görüntü cihazı və ya işıq axtarma cihazlarında, yanğın xəbərdarlığı sistemlərində də tətbiq edilə bilər”, - deyir



# İslam Dünyasında

## Türkiyədə «Azərbaycan - İslam incisi» adlı fotosərgi açılıb

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) mətbuat xidmətindən Trend-ə verilən məlumata görə, Türkiyədə Əskişəhər Osman Qazi Universitetində keçirilən «Qafqazdan Anadoluya mədəniyyət körpülərimiz: Seyid Yəhya Bakuvi və Xəlvətilik» mövzusunda beynəlxalq simpozium çərçivəsində DQİDK-nin, Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun və Azərbaycan Milli Tolerantlıq Mərkəzinin birgə təşkilatçılığı ilə Azərbaycan Prezidenti İlham Əliyevin Azərbaycanda tarixi məscidlərin bərpası və yeni məscidlərin inşası ilə bağlı fəaliyyətini əks etdirən və ölkəmizdə İslam memarlığının, İslam dininin yayılmasını tərənnüm edən «Azərbaycan - İslam incisi» adlı fotosərgi açılıb.

Sərginin açılış mərasimində DQİDK sədrinin müavini Gündüz İsmayılov, Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun icraçı katibi Elməddin Mehdiyev və Türkiyənin bir sıra rəsmi şəxsləri çıxış edərək bildiriblər ki, sərgidə nümayiş etdirilən məscidlərə təkcə ibadət evi kimi baxmaq doğru deyil. Məscidlərin arasında elələri var ki, onlar Azərbaycan xalqının tarixən mənəvi ocağı olublar. Bu baxımdan onlar xalqımızın daşlaşmış yaddaşıdır. Məsələn, 1918-ci ildə erməni-daşnak quldur dəstələri «Təzəpir» məscidini yandırmaq istəyiblər. Bakının xilaskarı Nuru Paşa bu məsciddə şəhər sakinləri ilə görüşüb, 1990-cı ildə isə 20 Fevral şəhidləri bu məsciddə yuyularaq kəfənlənib.



Bildirilib ki, Cənubi Qafqazın ilk məscidi, 1918-ci ildə xalqımıza qarşı həyata keçirilmiş soyqırımı zamanı erməni daşnak-bolşevik hərbi birləşmələri tərəfindən yandırılaraq yerlə-yeksan edilmiş «Şamaxı Cümə» məscidi Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamına əsasən bərpa edilərək yenidən qurulub və bu ilin may ayında təntənəli açılışı olub. O da xüsusi vurğulanıb ki, məscidin bərpası Azərbaycan xalqı, o cümlədən, bütün dindarlar üçün təkcə ibadət evinin yenidən qurulması deyil, həm tariximizin, həm milli irsimizin, həm də milli təfəkkürümüzün qorunmasıdır.

Qeyd edək ki, sərgi 1 həftə ərzində Əskişəhər Osman Qazi Universitetində ziyarətçilərə açıq olacaq.

# Keçən Ay

## Din işləri rəhbəri cənab Mehmet Görmez: "Ortaq dil, mədəniyyət və düşüncə formalaşdırılmalıdır"

Türkiyənin din işləri rəhbəri professor Mehmet Görmez yeni Kərbəla hadisəsinin baş verməməsi üçün dünyadakı bütün müsəlmanların ortaq dil, ortaq mədəniyyət və ortaq düşüncə formalaşdırmasını təklif edib. Bəzi məsələlərlə əlaqədar Trabzona gələn Görmez Trabzonun valisi Abdil Celil Özlə görüşüb.Mehmet Görmez burada söylədiyi nitqində dünyanın çox sürətlə dəyişdiyini bildirərək: "İnsanlar, nəsillər, dillər dəyişir. Ona görə, biz daima özümüzü təkmilləşdirməliyik. Din xadimlərinin də daima xidmətlərimizi nəzərdən keçirərək öz dilini, üslubunu, nitqini, xidmətlərini təkmilləşdirməsi çox vacibdir. Buna görə, onlarla şəxsən görüşərək, müzakirə edərək bunu həyata keçirəcəyik, keçiririk də", - deyib. İslam dünyasının bu günlərdə məhərrəm ayını qeyd etdiyinə işarə edən Görmez: "Məhərrəm ayı, aşura, Kərbəla dedikdə məzhəbi nə olursa olsun, bütün möminləri, bütün müsəlmanları xatırladıqları aydır. Mən bütün dünyadakı müsəlmanların yeni Kərbəla hadisəsinin baş verməməsi üçün ortaq dil, ortaq mədəniyyət, ortaq düşüncə formalaşdırmasını təklif edirəm. Bu gün, təəssüf ki, bütün İslam dünyasında müasir kərbəlalar baş verir. Nə qədər insan boş yerə həyatını itirir. Ona görə də, bütün müsəlmanların məzhəbi, dili, mədəniyyəti, düşüncəsi nə olursa olsun, birləşərək bir daha Kərbəla hadisəsinin baş verməməsi üçün ortaq mədəniyyət, ortaq düşüncə formalaşdırmasının, qəlbən bir olmasının labüdlüyünü ifadə etmək istəyirəm", - deyib.

## Almanlar açıq məscid günündə İslamla tanış olurlar

Almaniyada 2000-dən çox məscid var. Bu məscidlər bu gün müsəlmanlarla yanaşı, fərqli din və məzhəblərdən olan bütün inananlara açıqdır. Almaniyadakı İslam qurumları iki Almaniyanın birləşdiyi 3 Oktyabr Birlik Günündə 16 ildir ki məscidlərdə açıq qapı günü təşkil edirlər. Məscidlərdə keçirilən açıq qapı günündə bu il qlobal istiləşmə, hava kirliliyi, su sıxıntısı kimi mövzulardan ibarət "Təbiəti qorumaq üçün məscidlər səfərbərdir" mövzusu müzakirə olunur. İslam haqqında məlumat almaq istəyən çoxlu sayda alman məscidlərin açıq qapı günündə iştirak edərək müsəlmanları daha yaxından tanımaq imkanı əldə edir.



# İNTİHAR ETMƏK HARAMDIR

## İntiharın qarşısı imanla alınar

10 sentyabr bütün dünyada intiharın qarşısının alınması günü kimi qeyd olunur. Dünya Səhiyyə Təşkilatının verdiyi məlumata əsasən, hər 40 saniyədə bir intihar, hər 3 saniyədə isə bir intihar təşəbbüsü baş verir.

Türkiyə Psixiatriya Dərnəyinin rəhbəri Şeref Özer mövzu ilə əlaqədar olaraq verdiyi açıqlamada dünyada intiharların və intihar təşəbbüslərinin son illərdə artdığını bildirib.

Özer: "Başda depressiya ilə spirtli içki və narkotik maddə aludəçiliyi olmaqla, müxtəlif ruhi xəstəliklər, uşaqlıq və yetkinlik dövrünə aid yanlış həyat tərzləri, ailədaxili mənfi hadisələr, sosial cəhətdən təcrid edilmə, ictimai fədakarlığın olmaması, iqtisadi problemlər, itkin düşmə, ümidsizlik, çılğınlıq, köç kimi sosial-iqtisadi amillər intihar riskini artırır", - deyib.

İntihar və intihar təşəbbüslərinin xüsusilə gənclər arasında daha çox yayıldığını bildirən Özer qeyd edib:

"Dünya Səhiyyə Təşkilatı dünyada hər 40 saniyədə bir intiharın, hər 3 saniyədə bir intihar təşəbbüsünün baş verdiyini, son 45 ildə intiharların 60% artdığını və intiharın bütün dünyada ilk 10 ölüm səbəbi arasında göstərildiyini bildirir. Bu rəqəmlərə görə hər gün 3000 nəfər, hər 30 saniyədə bir nəfər intihar edir. Bütün ölümlərin təqribən 1%-ni intiharlar təşkil edir".

Dünyanın harasında olur-olsun, problemlərindən asılı olmayaraq, insanların çəkdiyi sıxıntıların yeganə səbəbi var: Allah`ı tanımamaları və ancaq imanla qazanacaqları nemətlərdən məhrum qalmaları…

Allah`a iman gətirmədikcə, Allah`dan qorxmadıqca və iman əxlaqı ilə yaşamadıqca insanların həqiqi mənada xoşbəxt, rahat olmaları, problemləri ağılla, sağlam düşünərək həll etmələri, mütləq mənada sabit xarakterli olmaları mümkün deyil.

Bu, Allah`ın Quranla insanlara bildirdiyi qanunudur. Ən gözəl nemətlərin içində olsalar da, Allah`dan uzaq olduqlarına görə, bu kəslər bədbəxt həyat yaşayırlar. Çünki Allah insanlara xoşbəxtliyi ancaq imanla verir, ancaq imanla həyatın gözəlliklərindən həqiqi mənada zövq ala bilərlər.

Qurana uyğun səmimi iman olmadıqca insanlar heç bir şəkildə həqiqi xoşbəxtliyi əldə edə bilməzlər.

Ən inkişaf etmiş, ən mədəni tanınan ölkələrdə və ya ən yaxşı böyüdülmüş insanlar arasında belə intihar faizinin bu qədər yüksək olmasının səbəbi iman əskikliyidir.

İman gətirən insan dünya həyatında maddi-mənəvi problemlərlə qarşılaşsa da, hamısını iman gözü ilə dəyərləndirərək rahat olur. Məsələn, bir anda bütün mal-mülkünü itirər, külli miqdarda borc altında qalar və bunları ödəmək üçün çıxış yolu olmaya bilər. Yaxud ölümcül xəstəliyə tutulub fiziki cəhətdən çox əziyyət çəkərək yaşamalı olar. Şikəst olar və yaşaması hər cəhətdən çox çətinləşə bilər. Sevdiyi insanlardan uzaq düşər və ya yaxınlarının xain davranışları ilə qarşılaşar. Bu kimi hallar hər insanın başına gələ bilər. Ancaq bundan daha çətin, çıxılmaz vəziyyətlər də olsa, mömin üçün fərq etməz. Müsəlman bütün bunların Allah`ın nəzarəti altında yaradıldığını, onun üçün xeyirli, hikmətli olduğunu və Allah`a təvəkkül edən insan üçün hər şeyin mütləq gözəl şəkildə nəticələnəcəyini bilir. Odur ki, kədər, üzülmək, ümidsizlik, stress, çarəsizlik kimi yanlış hallara yol verməz.

İman gətirməyən insanlar üçün dünyadakı ən adi hadisə belə intihar səbəbi ola bilər. Birindən eşitdikləri pis söz, adi bir tənqid, bir sahədə müvəffəq olmamaları belə onları intihara təşviq edə bilər. Daha böyük problemlərlə qarşılaşdıqda isə əksəriyyəti ciddi depressiyaya düşür və intihara əl atırlar. Mütəxəssislərin verdiyi rəqəmlər bu məsələnin nə qədər ciddi olduğunu göstərir: "… hər 40 saniyədə bir intihar, hər 3 saniyədə bir intihar təşəbbüsü".

İnsanların problemlərinə həll yolu tapılsa belə, yenə də intihar həll edilməz. Məsələn, iflasa uğrayan birinə itirdiyi pulunun hamısı ödənsə, bəlkə həmin an intihar etməkdən əl çəkə bilər. Ancaq növbəti mərhələdə yeni problemlə qarşılaşacaq. Bu problemi də həll olunsa, yenə də intihara meyilliliyindən əl çəkməz. Çünki məsələnin kökündə həyata yanlış baxışı durur. Allah`a təvəkkül etməməyin sıxıntısını çəkir. Belə bir insan dərhal kədərlənir, stress keçirir, ümidsizliyə düşür. Psixoloji cəhətdən dəstək alması, müalicə alması da həll yolu deyil. Yeganə həll yolu uca Allah`ı tanıması, Rəbbimizin üstün əxlaqını, qullarına sevgisini, rəhmətini, lütfünü, nemətini təqdir etməsi, qədərin mükəmməlliyinə, Allah`dan gələn hər şeyin xeyrinə və hikmətinə, insanların axirətdə mükafat alacaqlarına inanmasıdır.

Bu səbəbdən, xüsusilə son 45 ildə 60% artan intihar hadisələrinin qarşısının alınması üçün yeganə yol insanlara Allah`ı tanıtmaq, Quran əxlaqını öyrətmək, imanı sevdirməkdir.

***Cənab Adnan Oktarın 11 oktyabr 2009-cu il tarixli Kanal 35 və Kral Karadeniz TV müsahibəsindən***

ADNAN OKTAR: Bir insan intihar edəcək qədər gücünü itiribsə, bu, onun mənəvi cəhətdən nə qədər çökdüyünü göstərir. İnsan nə olur olsun, cinayət törətməz. Heç bir səbəb insanı cinayət törətməyə təşviq edə bilməz. Özünü öldürməsi də cinayətdir və bu, çox böyük haramdır. Bir hadisə olubsa, evdən çıxarsan, gedib parkda oturarsan. Yarım dilim çörək yeyərsən, bir məscidin həyətində yatarsan, ancaq yenə də insan özünü öldürməz. Çox böyük haramdır. Nə olub? Aclıqdan öləcəksən? Allah səni qoruyur. Əgər məsələ qürur məsələsidirsə, niyə qüruruna toxunur? Sən iflasa uğramısansa, hörmətlə qarşılayarıq. Allah səni iflasa məruz qoyub, bir xeyir var. Niyə narahat olursan? Allah deyir, şeytandan Allah`a sığınıram: “Bolluq da verir, darlıq da verir”. Bolluqda azğınlaşmaq, təkəbbürlənmək, darlıqda da kədərlənmək, ümidsizliyə qapılmaq olmaz. Allah`a təvəkkül edib səbirli olacaqsan.

APARICI: Allah`a üsyan etməyib səbirli olmaq lazımdır.

ADNAN OKTAR: Əlbəttə. Bu da çox böyük təhlükədir. Cəmiyyəti xəbərdar edib çəkindirmək lazımdır. Bu intihar edənlər çox dəyərli insanlardır, elə deyilmi? Lakin dini bilikləri əskikdir, imanları zəifdir. Özlərindən çıxırlar, şüurları örtülür və intihar edirlər, Allah qorusun və çox böyük haram edirlər.



Düşünən İnsan, Fevral 2014

# Dilin təkamülü düyünü

Tarixin təkamülü hekayəsini uyduran təkamülçülərin qarşılarında bir çox əngəl var. Bunlardan biri insan şüurunun necə ortaya çıxması, digəri isə nitqin ilk dəfə necə meydana gəlməsidir. Bu iki mövzu insanı digər canlılardan ayıran əhəmiyyətli xüsusiyyətlərdir.

Biz danışarkən düşüncələrimizi dil sayəsində nizamlayır və fikrimizi qarşı tərəfin anlayacağı şəkildə ifadə edirik. Bunlar müəyyən əzələ hərəkətləri tələb etdiyi halda, biz bunları nəzərə belə almırıq. Biz yalnız danışmağı diləyirik. 100-ə yaxın əzələnin uyğun şəkildə yığılıb-boşalaraq səslər, hecalar və sözlər çıxarması, mübtəda, xəbər, əvəzlik kimi elementlərin uyğun sırada düzülməsi nəticəsində qarşı tərəfin anlayacağı cümlələr ortaya çıxır.

İnsanın danışma bacarığı təkamül prosesinin xəyali mexanizmləri tərəfindən açıqlanmayan çox kompleks bir qabiliyyətdir. Təkamülçülər son dərəcə kompleks qabiliyyət olan danışmanın bəsit və heyvani ünsiyyət formalarından təkmilləşdiyini iddia edərək tamamilə müvəffəqiyyətsizliyə uğramışlar. Pensilvaniya Universitetinin professoru Devid Premakın (David Premack) "İnsan dili təkamül nəzəriyyəsinə utancdır"[1] sözləri bu müvəffəqiyyətsizliyi bir daha sübut edir.

Məşhur dilçi Derek Bikerton (Derek Bickerton) utanc səbəblərini belə yekunlaşdırmışdır:

*"Danışma insandan əvvəlki nəsildə meydana gələ bilərmi? Xeyr. Heyvan ünsiyyəti xüsusiyyətlərinə bənzəyə bilərmi? Xeyr... Heç bir meymun intensiv təlimə baxmayaraq, qrammatika qaydalarını öyrənə bilməmişdir. Sözlər necə ortaya çıxdı, sözlərin düzülüşü necə ortaya çıxdı? Bu problemlər təkamülünün kökündə yatır".*[2]

Yer üzündə mövcud olan bütün dillər mükəmməldir və bu mükəmməlliyin pilləli şəkildə necə qazanılmasını təkamülçülər xəyal belə edə bilmirlər. Təkamülçü bioloq Riçard Dokinzə (Richard Dawkins) görə, ən primitiv qəbilə dilləri də daxil olmaqla, hər dil mükəmməldir:

*"Bu mövzuya ən bariz nümunə danışmaqdır. Heç kim necə başladığını bilmir... Sözlər və mənaların mənşəyi də eyni dərəcədə naməlumdur... Dünyadakı minlərlə dilin hamısı mürəkkəbdir. Bunun pilləli şəkildə inkişaf etdiyini düşünürəm, lakin belə olması tam aydın deyil. Bəziləri müəyyən yer və müəyyən zamanda tək bir zəka tərəfindən icad edildiyini və birdən başladığını düşünür".*[3]

V. K. Vilkins (W. K. Wilkins) və C. Vekfild (J. Wakefield) adlı iki təkamülçü beyin tədqiqatçısı isə bu mövzuda bunları söyləyir:

*"Dil təkamülünün keçid mərhələləri ilə*



*əlaqədar dəlil yoxdur. Buna baxmayaraq, alternativ fikirləri qəbul etməyimiz çətindir. Əgər növə xas bəzi xüsusiyyətlər parçalara ayrılmış şəkildə təkmilləşmirsə, bu vəziyyəti açıqlamaq üçün iki yol var. Ya hələ kəşf etmədiyimiz bir güc, bəlkə də İlahi bir müdaxilə ilə lazım olan şəkildə yerləşdirilmişdir, ya da növlərin inkişafında ani bir dəyişikliyin, bəlkə də bir növ spontan və məşhur mutasiyanın nəticəsidir... Amma belə təsadüfi bir mutasiyanın təsadüfi təbiəti bu iddianı şübhə altına alır. Əvvəl qeyd edildiyi kimi, (Pinker and Bloom, 1990), dil kimi kompleks və ideal bir sistemə gətirib çıxaran mutasiyanın ehtimalı yox deyiləcək qədər aşağıdır".*[4]

Dilçi Noam Çomski (Noam Chomsky) də danışma qabiliyyətinin kompleksliyi qarşısında düşüncələrini bu şəkildə ifadə edir:

*"Danışmağın meydana gəlməsi ilə əlaqədar olaraq bura qədər heç bir şey demədim. Səbəbi isə deyiləcək çox az şey olduğundandır. Kənardan görünən bir neçə xüsusiyyətdən başqa, danışmaq böyük bir sirdir".*[5]

Təkamülçü ön mühakimələrə bağlı qalmayan biri üçün isə danışma bacarığının mənbəyi məlumdur. Bu qabiliyyəti insana verən uca Allah`dır. Allah insanlara danışmağı ilham edir və onları danışdırır. Bu həqiqət bir Quran ayəsində belə xəbər verilir:

**"Hər şeyi danışdıran Allah bizi danışdırdı. Sizi ilk dəfə O yaratmışdır və siz Ona qaytarılacaqsınız". (Fussilət surəsi, 21)**

Təkamülçülər dilin əsaslandığı bioloji strukturların kompleksliyini açıqlaya bilmədikləri kimi, şüurun mənşəyini də açıqlaya bilmirlər. Maddəyə heç bir şəkildə sadələşdirilə bilinməyən insan şüuru və dildəki komplekslik onu üstün bir ağılın yaratdığını göstərir. Bu üstün ağılın sahibi Rəbbimiz olan uca Allah'dır.

1. Swisher III, Roger Lewin, Java Man, Abacus, London, 2002, s. 205
2. Derek Bickerton, "Babel's Cornerstone," New Scientist (vol. 156, October 4, 1997), s. 42
3. Richard Dawkins, Unweaving the Rainbow Boston, Houghton-Miflin Co., 1998, s. 294
4. Wilkins, W.K. & Wakefield, J., Brain evolution and neurolinguistic preconditions. Behavioral and Brain Sciences 18 (1): s. 161-226
5. Noam Chomsky, Powers and Prospects, s. 16



# İman gətirən insanların həyatı TAMAMİLƏ BAŞQA CÜR OLUR

İmanın müxtəlif dərəcələri var. Allah ayələrində güclü imana malik olan müsəlmanların vəsflərinə diqqət çəkmişdir. Belə ki, Allah'dan çox qorxan, Onu çox sevən, həyatlarının hər anını Onun üçün yaşayan və Onun əmr etdiyi kimi gözəl əxlaqlı olan təqvalı müsəlmanlarla bərabər vicdanları ilə hərəkət etməyən, heç bir üzrlü səbəbi olmadığı halda, dinsizliyə qarşı Allah yolunda fikri mübarizə aparmaqdan çəkinən və ya əsəbiləşmək, hadisələr qarşısında kədərlənmək və təşvişə düşmək kimi Allah'ın insanları çəkindirdiyi pis əxlaq xüsusiyyətlərindən əl çəkməyən, bunlara baxmayaraq, iman gətirdiklərini söyləyən insanlar da var. Bu vəziyyət Quranda işarə edilən iman dərəcələrinə nümunədir.

Əlbəttə, Allah iman gətirən hər kəsə cənnətini vəd etmişdir. Bir ayədə Allah heç bir üzrlü səbəbləri olmadığı halda, Onun yolunda fikri mübarizəyə qoşulmayan bəzi şəxslərə də cənnəti vəd etdiyini belə bildirir:

***Zərər çəkmədən əyləşən möminlərlə Allah yolunda öz malları və canları ilə cəhd edən kimsələr bir olmazlar. Allah malları və canları ilə cəhd edənləri əyləşənlərdən dərəcə etibarilə üstün tutdu. Allah bunların hamısına vəd etmişdir. Allah mücahidlərə oturanlardan daha böyük mükafatlarla imtiyaz vermişdir. (Nisa surəsi, 95)***

Ayədə də bildirildiyi kimi, Allah bütün möminlərə cənnəti vəd etdiyini, ancaq Onun yolunda malları və canları ilə dinsizliyə qarşı fikri mübarizə aparanların daha üstün əcrə malik olacaqlarını xəbər vermişdir. Bu da onu göstərir ki, bir müsəlman üçün Allah rizasının ən çoxu Allah yolunda fikri mübarizə aparmaq, lazım gəldikdə bu mübarizəyə var gücü ilə dəstək olmaq, bu elmi mübarizəyə qoşulmaqdır. Belə bir mübarizə şərt olduqda üzrlü bir səbəb olmadan daha az cəhd göstərməyin və ya geri çəkilməyin isə Allah qatında dəyəri daha azdır.

Həqiqi iman Allah'a qeyd-şərtsiz təslim olmağı, Onun əmr və tövsiyələrinə qəti şəkildə riayət etməyi, Allah'ın əmrlərini yerinə yetirərkən şeytanın hiyləgər tələlərinə və nəfsinin xudbin oyunlarına boyun əyməməyi, Allah'ın dinini yaşamaq üçün həyat boyu davam edən sağlam qətiyyət göstərməyi də ehtiva edir. Ona görə də şeytanın aldadıcı oyunlarına qarşı Allah yolunda lazımi

qətiyyəti göstərə bilməyən, Allah'ın əmr və tövsiyələrinə əməl edərkən bəzən zəiflik göstərən insanların bu vəziyyətlərini dərhal düzəltməyə çalışmaları, imanlarını vaxt itirmədən gücləndirmələri, Allah qorxularını və Allah sevgilərini artırmaları, Allah'a təslim olaraq və axirətə yönələrək sadəcə Allah rizası üçün yaşamağa başlamaları Allah rizasına ən uyğun, ən doğru davranışdır.

## Zəif imanı gücləndirmək üçün nə etmək lazımdır?

Əlbəttə, zəif imana malik olan bir insan imanını artırmaq üçün bir sıra səbəblərə əl atmalı, məsələn, imanının artmasına səbəb olacaq iman həqiqətlərini öyrənməli, imani mövzularda dərinləşmək ümidi ilə bu mövzuda çox oxumalı, Qurandan möhkəm yapışmalıdır.

Belə ki, bu vacib cəhəti də unutmaq olmaz: əslində, həqiqi imana sahib olmaq istəyən şəxs, hər şeydən əvvəl, Allah'a bütün səmimiyyəti ilə yönəlməlidir. İnsan Allah'ın onu eşitdiyini, onu gördüyünü bilərək Ona bütün qəlbi ilə yönəldikdə və Ondan güclü iman dilədikdə Allah'ın mütləq onun duasına qarşılıq verdiyini görəcək. Allah bütün duaları eşidən, bütün qullarını tövbə etməyə və Ona yönəlməyə çağırandır. Allah'ın varlığı çox açıq, qəti və aydındır. Göy üzündəki nəhəng qalaktikalardan insan orqanizmindəki hüceyrənin tərkib hissələrinə qədər kainatın hər tərəfini əhatə edən yaradılış möcüzələri Allah'ın varlığının dəlillərini açıq-aşkar göstərir. Bu möcüzələrdən sadəcə birinə belə şahid olmaq Allah'a tam yəqinliklə iman gətirmək üçün kifayətdir. Digər tərəfdən, Allah insana öz bədənində də dəlillər yaratmışdır. Belə ki, əslində, hər insan vicdanən Allah'ın varlığından çox əmindir. Vicdanın səsini dünyəvi istəklərə meyil edərək boğmamaq, vicdanı təmiz saxlamaq və vicdanın əmr etdiyi kimi yaşamaq əsasdır.

## İman gətirən insanın həyatının hər anı gözəl keçir

Qəti iman gətirən bir insan həyatı iman gətirməyən insanlardan çox fərqli qavrayır və yaşayır. Hər an



Düşünən İnsan, Fevral 2014

xoşbəxt və şən olmaları, heç bir şeyə görə kədərlənməmələri, ümidsizliyə düşməmələri, heç bir səbəblə əhvallarının pozulmaması, şər kimi görünən hadisələr başlarına gəldikdə belə çox rahat və sakit olmaları iman gətirənlər və iman gətirməyənlər arasındakı fərqi göstərən ən bariz xüsusiyyətlərdəndir.

Bəzi insanlar Allah'ın əmr və tövsiyələrinə əsasən yaşadıqda bədbəxt olacaqlarını hesab edərək dindən uzaq qalırlar. Əslində isə məhz din əxlaqından uzaq qalaraq bədbəxt olurlar. Bədbəxtliklərinin səbəblərini də heç cür anlaya bilmir, süni üsullarla bunun qarşısını almağa çalışırlar. Ancaq nə etsələr də, əsl mənada xoşbəxt ola bilməzlər. Əsl xoşbəxtlik ancaq Allah'a yönəlməklə mümkündür. Allah bir ayəsində bu vəziyyəti belə ifadə edir:

***...Dünya həyatı ilə sevindilər. Halbuki, dünya həyatı axirət həyatı ilə müqayisədə çox cüzi bir şeydir. (Rəd surəsi, 26)***

İman gətirən insanlar isə hər an xoşbəxt və şəndirlər. Xoşbəxt olmaq, sevinmək üçün xüsusi səbəb axtarmağa ehtiyac duymurlar, onlar onsuz da iman gətirməyin, Allah'ın varlığının dəlillərini hər yerdə görməyin və Allah'ın cənnət vədini sevinclə gözləməyin daim sevinci içərisindədirlər. İman gətirməyən insanlar da iman gətirənlərin hər an xoşbəxt, şən, təvəkküllü vəziyyətlərinə təəccüblənir, bunun ardındakı səbəbi heç cür anlaya bilmirlər. Xüsusilə də müsəlmanların başlarına gələn hər çətinliyə xeyir gözü ilə baxmalarını heyrətlə qarşılayırlar. Özlərinin ümidsiz halda kədərləndikləri bir hadisə qarşısında müsəlmanların əks reaksiyası, hər zaman müsbət yönlü, səbirli, təvazökar davranmaları, nə baş versə də, hadisələrdə daima xeyir və hikmət görmələri, çətinliklərlə tez-tez qarşılaşmalarına baxmayaraq, rahat və sakit olmaları onları çox təəccübləndirir. Belə ki, möminlər başqalarının heç cür tab gətirə bilməyəcəyi qədər müxtəlif çətinliklərlə qarşılaşırlar. Məsələn, qınanırlar, tənqid edilirlər, ələ salma, iftira kimi müxtəlif psixoloji təzyiqlərə məruz qalırlar. Tarix boyu inkar edənlərin müxtəlif



təzyiqlərinə məruz qalan, hətta ölümlə hədələnən peyğəmbərlər və saleh möminlərin vəziyyəti buna açıq bir nümunədir. Qarşılaşdıqları çətinliklər peyğəmbərlərin Allah yolunda daha da şövqlə mübarizə aparmalarına səbəb olmuşdur. Ona görə, qarşılaşdıqları çətinliklər peyğəmbərlərin yolu ilə gedən möminlərin də sevincini artırır, onlar da imanın sevincini əzab və çətinliyin içində daha qüvvətli şəkildə yaşayırlar. Hər şeyin Allah tərəfindən olduğunu bilir, Allah'ın yaratdığı qədərə tam təslim olurlar. Bu iman Allah'ın Quranda təriflədiyi, vacib olduğunu vurğuladığı iman formasıdır. Allah bir ayəsində belə buyurur:

***Neçə-neçə peyğəmbər bir yığın Allahpərəstlə birlikdə vuruşmuşlar. Lakin onlar Allah yolunda çəkdikləri müsibətlərə görə nə zəiflik, nə acizlik göstərmiş, nə də boyun əymişlər. Allah səbir edənləri sevər! (Ali-İmran surəsi, 146)***

## Allah Ona yaxınlaşmaq üçün ciddi səy göstərən insana mütləq qarşılıq verir

Səmimi, təqvalı müsəlmanın hədəfi Allah'dan çox qorxan, Onu çox sevən və hər an Ona bağlı yaşayan müsəlmanlardan olmaq, peyğəmbərlərin yolunu izləmək və imanı ən gözəl şəkildə yaşamaqdır. Belə ki, bu qısa fani dünya həyatında müsəlmanın üzərinə düşən ən vacib vəzifələrdən biri gücü çatdığı qədər ən güclü imana, ən güclü Allah qorxusuna və ən dərin Allah sevgisinə sahib olmaqdır. Heç şübhə yoxdur ki, daha artığına gücü çatırsa, daha azı ilə kifayətlənmək vicdanlı bir müsəlmana layiq deyil.

Həqiqət budur ki, səmimi şəkildə Allah'a yönələn hər kəs çox yüksək iman dərəcəsinə çata bilər. Bunun üçün insan Allah'ı ən yaxın dost tutmalı, Ona qarşı hər an hörmət dolu qorxu duymalı, Onun dinindən əsla dönməməlidir. Ciddi səylə Allah'a yaxınlaşmağa cəhd göstərən insanı mütləq Allah Özünə dost tutar. Allah bir ayəsində belə buyurur:

***Bəndələrim Məni səndən soruşduqda söylə ki, Mən (onlara) yaxınam. Dua edib Məni çağıranın duasını qəbul edərəm. Gərək onlar da Mənim çağırışımı qəbul edib Mənə iman gətirsinlər. Bununla da, ola bilsin ki, doğru yola yetişsinlər. (Bəqərə surəsi, 186)***

# ALLAH`IN TOZ ZƏRRƏCİKLƏRİNDƏ YARATDIĞI HİKMƏTLƏR



**Tozun olmaması həyatımızda hansı çatışmazlıqlara səbəb olardı?**
**Tozun faydası varmı?**
**Toz nədir?**

Toz zərrəcikləri müxtəlif tullantı və kiçik torpaq dənəciklərindən ibarət, cisimlərin üstündəki və ya havada asılı olan çox incə, pudraya bənzər maddədir. Allah tozu xüsusi məqsədlə ancaq dünyaya xas yaratmışdır. Cənnətdə toz yoxdur. Allah`ın tozu yaratmasının ardında bir çox hikmət var (doğrusunu Allah bilir). Tozun zərərləri insanın dünyaya bağlanmasının qarşısını alır. Ancaq toz olmasa, təbii proseslərin həyata keçməsində bir çox problemlər yaranar.

Tozun mənbəyi müxtəlifdir. Tüstü bacalarından çıxan karbon qazı, vulkan püskürmələri, çiçəklərin tozcuqları, bitki əsaslı maddələr, metal qırıntıları, avtomobil şinlərindən çıxan tozlar, heyvan və insan dərilərinin artıqları, kürk və tüklərin artıqları, dənizlərdən və səhralardan gələn toz zərrəcikləri bunlardan bəziləridir.

## Toz zərrəciklərinin yaradılmasındakı hikmətlər

Toz zərrəciklərinin yaradılış məqsədini bu günə qədər heç düşünməyə bilərsiniz. Bir çox insan tozu əhəmiyyətsiz hesab edə bilər, hətta tozun məhz ətraf mühiti kirləndirməkdən başqa məqsədinin olmadığını zənn edə bilər. Halbuki, Allah yaratdığı hər təfərrüat üzərində düşünməyimizi və yaradılış səbəblərinin ardındakı hikmətləri görməyimizi istəyir. Bir ayədə belə deyilir:

*Həqiqətən, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birini əvəz etməsində, içərisində insanlar üçün mənfəətli şeylər olan gəmilərin dənizlərdə üzməsində, quruyan yer üzünü Allah`ın göydən yağmur yağdıraraq yenidən diriltməsində, cins-cins heyvanları onun hər tərəfə yaymasında, göylə yer arasında ram edilmiş küləyin və buludların bir səmtdən başqa səmtə döndərilməsində əlamətlər vardır. (Bəqərə surəsi, 164)*

## Toz zərrəcikləri Yerdəki qüsursuz müvazinətin tənzimlənməsində böyük rol oynayır

- Yağışın yağması üçün toz zərrəciklərinə ehtiyac var

Allah toz zərrəciklərini atmosferdə, xüsusilə yağışın yağmasında mühüm rol oynayacaq şəkildə yaradıb. Əslində, mikroskop altında görünən toz zərrəcikləri çox kiçik bərk və maye zərrəciklərdən





təşkil olunub. Bu zərrəciklərdən ağır olanlar daima yerə düşür, bəziləri isə küləklərlə çox uzaqlardan gətirilir. Çox yüngül olan toz zərrəcikləri isə havada asılı qalırlar. Bu toz zərrəciklərinə atmosferin çox yüksək təbəqələrində də rast gəlinir.

Havadakı su buxarı toz zərrəciklərinin üzərində sıx toplanaraq duman, çən və buludları əmələ gətirir. Əgər atmosferdə bu toz zərrəcikləri olmasaydı, su buxarının damcı şəklində sıxlaşması mümkün olmazdı. Hətta havada toz zərrəcikləri olmasaydı, sıxlaşan su buxarı yerə yağış damcısı şəklində düşməz, çox güclü leysan yağışlarına səbəb olar, bu isə sellərə və torpaq sürüşmələrinə yol açardı. Lakin Rəbbimiz toz zərrəcikləri ilə qüsursuz nizam yaratmış, yağışın yağmasını tənzimləmişdir.

Allah Quranda yağışın əmələ gəlməsi haqqındakı ayədə buludlardan bəhs edərkən küləklərin toz zərrəciklərini sanki bulud kimi qaldırdığına, bunların göydə yayılmasına və yağışın bu şəkildə əmələ gəlməsinə diqqət çəkir:

***Buludları qaldıran küləkləri göndərib onları göy üzündə istədiyi kimi yayan və topa-topa edən Allah`dır. Artıq buludların arasından yağış çıxdığını görürsən. Onu bəndələrindən istədiyinə verən kimi onlar sevinərlər. (Rum surəsi, 48)***

Toz zərrəcikləri bizə kainatda çox üstün yaradılış olduğunu göstərir. Kainatdakı qüsursuz nizamı və uca Allah`ın bənzərsiz sənətini görmək, Rəbbimizə hər an, hər saniyə möhtac olduğumuzu qavramaq və Onun böyüklüyünü təqdir etmək əsasdır. Bir ayədə Allah`ın bütün kainata hakim olduğu belə bildirilmişdir:

***O, göydən yerə qədər olan bütün işləri idarə edir. Sonra (həmin işlər) sizin saydığınızın min ilinə bərabər olan bir gündə Ona doğru yüksələr. (Səcdə surəsi, 5)***

-Toz zərrəcikləri işığı əks etdirir və işığın yayılmasına səbəb olur

Allah günəş işığı başda olmaqla, bütün işıq mənbələrinin görünən olması üçün toz zərrəciklərini səbəb kimi yaradıb. İşıq şüaları toz zərrəcikləri ilə toqquşaraq işıq əmələ gətirirlər. Günəş doğarkən və ya batarkən Yerin Günəşdən işıq almasının səbəbi toz zərrəciklərinin günəş işığını əks etdirməsidir. Günəşin doğduqda və batdıqda meydana gələn qızartı atmosferin yuxarı təbəqələrindəki tozun miqdarı ilə əlaqədardır. Atmosferdəki toz zərrəcikləri və rəngsiz qazlar işığın saçılmasına səbəb olur. Mavi işıq daha çox, qırmızı işıq isə daha az saçılır. Səmanın mavi olmasının səbəbi toz zərrəciklərinin qısa dalğalı mavi işığı uzun dalğalı qırmızı işığa nisbətən daha çox əks etdirməsidir. Axşam günəş batmazdan əvvəl və səhər günəş doğduqdan sonra, yəni Günəş üfüqə yaxın olduqda Günəşdən gələn işıq çox uzun hava təbəqəsindən keçərək Yer kürəsinə çatdıqda toz zərrəcikləri daha çox işıq saçılmasına səbəb olurlar. Ona görə, Günəş qırmızı görünür. Hava buludlu olmadıqda bu prinsiplə göy üzü mavi görünür, dumanlı havalarda isə sıx su buxarı qısa dalğalı mavi işığı saçır, uzun dalğalı qırmızı işığı isə qırmızı və ya

Düşünən İnsan, Fevral 2014





Göyləri və
yeri icad edən
(yoxdan yaradan)
Odur. Bir işin
yaranmasını istədiyi
zaman, ona (o işə) yalnız: "Ol !"
-deyər, o da olar.
(Bəqərə surəsi, 117)



narıncı rəngə çevirir.

- Torpaqdakı mineral maddələrin artmasına səbəb olur

Böyük Səhra və digər böyük səhralıqlardan atmosferə mütəmadi olaraq toz qalxır. Səhralardan qalxan narın zərrəciklər bir-birinə yapışır, bu zərrəciklərin bir hissəsi kosmosa gedir, qalanı isə yerə düşür, yerə düşərkən bir-biri ilə toqquşur, parçalanır və daha kiçik zərrəciklərə çevrilir və səmada müxtəlif ölçülü zərrəciklərdən ibarət nəhəng toz yığını meydana gəlir.

Atmosferdə toplanan bu narın tozlar yuxarıdakı ayədə diqqət çəkildiyi kimi, buludların əmələ gəlməsinə səbəb olur. Böyük qismi yağışla palçıq şəklində yer üzünə düşür və düşdüyü yeri münbitləşdirir. Çünki torpağı və suyu qidalandırır. Məlum olduğu kimi, yağış buludlarında hidrogen göstəricisi (pH) aşağıdır. Ancaq tozla birlikdə uçuşan bakteriyalar yağış buludları ilə aktivləşir və ion mübadiləsi reaksiyasını sürətləndirir. Günəş enerjisinin bol olduğu fasillərdə gündüz buludun tərkibindəki dəmirin miqdarı artır. Dəmirlə yüklü toz zərrəciklərinin torpağa düşməsi isə torpağın münbitliyini artırır.

Quruya çatmayan toz zərrəcikləri dənizi də münbitləşdirir, dəmir cəhətdən kasad olan okeanlarda dəmirin miqdarını artırır. Xüsusilə qırmızı səhralardan gələn tozlar dəmirlə zəngindir. Səhra tozlarının torpağı münbitləşdirən xüsusiyyətlərinə bir neçə misal çəkmək olar:

Çindəki Qobi səhrasından qalxan dəmirlə zəngin tozlar Sakit okeanı dəmirlə zənginləşdirir. Uca Rəbbimizin yaratdığı qüsursuz müvazinətin bir nəticəsi olaraq bu proseslə atmosferdəki karbon azalır. Çünki okeanlardakı planktonlar soyuq okean sularında tez həll olan karbon qazı və tozlarla gələn digər ionlarla qidalanaraq böyüyürlər. Bu mikroorqanizmləri yeyən digər dəniz canlılarının ölüb dənizin dibində toplanması ilə karbon dəniz altında toplanır. Beləliklə, atmosferdə karbon artıqlığının qarşısı alınır.

Afrikada Böyük Səhradan qalxan tozlar da Amazon meşələrindəki bitkilərin böyüməsinə təsir edir. Amazon meşələrinin laterit torpaqları bu ərazidə həddindən artıq ekvatorial yağışlar yağdığına görə münbit deyillər. Ancaq torpağın zəif mineral tərkibi fosforla zəngin tozların yağışla yer üzünə düşməsi ilə zənginləşir. Tərkibində minerallar olan səhra tozlarının köməyi ilə münbitləşən torpaqda bitən həmişəyaşıl meşələr isə atmosferdəki karbonu udur. Bu şəkildə, dəmirli və fosforlu tozlar Allah`ın qurduğu qüsursuz nizam sayəsində qlobal istiləşmənin səbəbi olan karbon qazını azaldaraq tənzimləyir. Şübhəsiz ki, həyatımızı davam etdirməyimiz üçün bu cür qüsursuz sistemi yaradan aləmlərin Rəbbi olan uca Allah`dır. Bir ayədə Rəbbimizin yaratma elmi belə bildirilmişdir:

***Gecə və gündüzün bir-birinin ardınca gəlib-getməsində, Allah`ın ruzi vermək üçün göydən yağış yağdırmasında, onun vasitəsilə yeri ölümündən sonra diriltməsində və küləkləri yönəltməsində ağılla düşünənlər üçün dəlillər vardır. (Casiyə surəsi, 5)***

## Allah dünya həyatının faniliyini göstərmək üçün toz zərrəciklərinin zərərli cəhətlərini də yaratmışdır

Allah`ın toz zərrəciklərini yaratmasının bir hikməti də dünya həyatındakı acizlikləri xatırlatmaq və dünyaya bağlanmağımızın qarşısını almaqdır. Toz zərrəcikləri:

-Kirlilik meydana gətirirlər. Tozun həyatımızda ən əsas xüsusiyyəti ətraf mühiti kirlətməsidir. Ən təmiz yerdə belə toz zərrəcikləri havada uçuşur. Günəşli gündə otaqda uçuşan toz zərrəciklərini hamımız görmüşük. Bir yeri təmizlədikdən dərhal sonra təmiz yer sürətlə toz zərrəcikləri ilə örtülür və ən çox bir gün sonra həmin yer sanki heç təmizlənməmiş kimi olur.

- Stolun üstündəki təmiz stəkanın içində ən az 25.000 mikroskopik toz var. Bu toz zərrəciklərində yer üzündəki hər şeydən bir az var. Səhra qumlarından tökülmüş kiçik zərrəciklər və gözlə görünməyən dəvə tükü lifləri, küləklə sovrulan meşə göbələyinin toxumları və qurumuş bənövşə artıqları və ya yaxınlıqdakı avtobusdan çıxan kiçik qara qurum parçaları stəkanın içindəki gözlə görünməyən toz zərrəciklərindən bir neçəsidir. Təkcə tozun əmələ gətirdiyi kirlilik belə insanın həsrətini çəkdiyi əsl yurdun dünya olmadığını anlaması üçün kifayətdir. Tozun dünya həyatına bağlanmağımızın qarşısını alan xüsusiyyəti təkcə kirlilik deyil.

İnsanlardakı allergik xəstəliklərin də səbəbi tozdur: yun, ipək və tük kimi zərərsiz görünən maddələrin lifləri də bəzi insanlarda astma xəstəliklərinə, çiçəklərin tozcuqları isə allergik rinitə səbəb olur.

Tozlu yerlərdə partlayış təhlükəsi artır. Normal şəraitdə asanlıqla alovlanmayan un və kakao kimi maddələr, kömür şaxtaları və yağlı toxum parçalarının üyüdüldüyü fabriklərlə toxuma fabriklərindəki toz partlayışa səbəb ola bilir.

Dəzgah və motorların aşınmasında təsiri: toz hərəkətli hissələri aşındırdığına görə dəzgah və motorlara zərər verir.

Sənaye bölgələrində sağlamlığa böyük zərər vurur: atmosferin alt təbəqələrindəki tozun heç bir faydası yoxdur. Xüsusilə qış aylarında bu toz çənin tərkibindəki su damcıları tərəfindən udulur və bronxiti və ya başqa ağciyər xəstəliyi olan insanlara böyük zərər verir.

Bütün bu qüsurları görən insan daima mükəmməllik arzusunda olur, bu cür çatışmazlıqların olmadığı dünyada yaşamaq istəyir. Kirliliyin, tozun, köhnəlmənin, xəstəliyin, təhlükələrin heç olmadığı dünyanın həsrətini çəkir. Bu məqsədlə heç bir problemin olmadığı xoşbəxt həyatı dünyada yaşamaq istəyir. Halbuki, Allah Quranda insanlara bu cür həyatı ancaq cənnətdə yaşaya biləcəklərini bildirmişdir. Allah cənnəti tərif edib tanıtdığı ayələrlə insanlara dünyadakı ilə müqayisə edilməyəcək qədər üstün nemətlər vəd verir. **“Orada onlar üçün istədikləri hər şey vardır. Dərgahımızda isə ondan artığı mövcuddur!” (Qaf surəsi, 35)** ayəsi ilə cənnətdəki nemətlərin zənginliyi xəbər verilir.









Düşünən İnsan, Fevral 2014



# HƏYATİ ƏHƏMİYYƏTLİ ELEMENT: FOSFOR

***Fosfor nə üçün həyati əhəmiyyətə malik elementdir?***
***Fosfor bədəndə harada və necə saxlanılır?***
***Fosfor çatışmazlığına qarşı hansı tədbirlər görülür?***

XX-XXI əsrlərdə neft həm böyük enerji mənbəyi idi, həm də sənaye üçün lazımlı çoxlu sayda məmulatın xammalını təşkil edirdi. Odur ki, bu dəyərli maddənin əldə edilməsi üçün müxtəlif sistemlər icad edildi. Yüzlərlə elm adamı və mühəndis neftin harada ola biləcəyinə və olduğu yerdən necə çıxarılacağına dair fəaliyyətlər həyata keçirdilər. Nəzəri məlumatlar praktikada tətbiq olundu. Bu yolla neft texniki alətlər köməyi ilə yerin altından çıxarıldı. Neftin emalı üçün müxtəlif zavodlar tikildi. Daşınması üçün xüsusi tankerlər və neft kəmərləri çəkildi. Bunlar dəyərli təbii sərvətdən faydalanmaq üçün lazım olan işlər idi.

Neftin cəmiyyətin həyatındakı roluna bənzər çox dəyərli xammal hüceyrələrimizin içində yerləşir. Bu xammal fosfordur. Hüceyrədə fosforun olması, xaric dilməsi, hüceyrəyə daşınması, emalı və saxlanması üçün heyranedici sistemlər yaradılıb. Bu sistemlərdən hər biri canlıların həyatı üçün vacibdir. Bu sistemlərdən biri olmazsa, canlılar ölər.

## Fosforun orqanizmdəki funksiyaları

Canlıların quru çəkisinin 3%-ini təşkil edən fosfor hüceyrənin həyati əhəmiyyətli proseslərində mühüm funksiyalar yerinə yetirir.

Fosfor:

- ***Hüceyrəmizin məlumat bankı olan DNT-nin və RNT-nin əsas quruluş vahididir. Yağ, zülal və şəkərdə mövcuddur.***
- ***Hüceyrənin bütün enerji dövranı bu maddə əsasında baş verir.***
- ***Qılafların və məlumatı təşkil edən hərflərin hasilatında rol oynayır.***
- ***Fotosintezdə, tənəffüsdə və bir çox fermentin idarə olunmasında istifadə edilir.***

Fosforun hüceyrəyə əlavə edilməsi və istifadəsi çox dəqiq proseslərlə nəzarətdə saxlanılır.

Bir çox ferment fosforu hüceyrə üçün lazımlı birləşmələr düzəltmək üçün digər atomlarla birləşdirir.

## Bakteriyalarda yığılıb saxlanılan fosfor

İnsanlar lazımlı materialları sürətlə təmin etmək üçün yaxınlıqda anbar düzəldib orada saxlayırlar. Bakteriyalarda da buna bənzər sistem fosfor üçün işləyir. Fosforun 85%-i sümükdə fosfat zəncirləri şəklində



saxlanılır. Bakteriyalarda bu anbar ehtiyac olduqda istifadə edilir. Ancaq fosfat zənciri sadəcə anbar molekulu deyil. Elm adamları fosfat zəncirinin hüceyrənin içində müxtəlif nəzarət proseslərində həyati rol oynadığını kəşf ediblər.

## Həyəcan siqnalı sistemi necə işləyir?

Bakteriyada fosfat miqdarı müəyyən səviyyədən aşağı düşdükdə həyəcan siqnalı çalınır. Qeyri-adi sistem təcili tədbir mexanizmini işə salır. Bunun üçün bir çox gen müştərək şəkildə hüceyrənin məruz qaldığı təhlükəni aradan qaldırmağa çalışır.

Binalarda yanğın baş verdikdə işə düşən yanğın həyəcan siqnalına bənzər şəkildə fosfat miqdarı azaldıqda hüceyrədə xüsusi molekul həyəcan siqnalı verir. PhoR adlı bu zülal həyəcan siqnalı məlumatını ikinci zülala ötürür. Təhlükədən xəbərdar imiş kimi hərəkət edən PhoB adlı zülal təcili tədbir mexanizmlərini işə salır. Bunun üçün DNT-də müxtəlif genlərin sintezini ya artırır, ya da dayandırır. Aydındır ki, bu qədər şüur tələb edən prosesləri molekullar həyata keçirə bilməz. Nəyi, necə və nə vaxt edəcəklərini Allah molekullara ilham edir. Hər varlığın Onun ilhamı ilə hərəkət etdiyini Allah bir ayədə belə bildirir:



birlikdə formalarını dəyişdirirlər. Bu yolla səthləri ilə həcmləri arasındakı ölçünü xarici mühitlə daha çox təmasda olacaq formaya salırlar. Beləliklə, daha asan fosfat əldə edirlər.

• Fərqli materialdan istifadə
Sintez sistemindəki şüurlu dəyişiklik də başqa ağıllı metoddur. Hüceyrə divarında yerləşən fosfatla zəngin birləşmələr tərkibində fosfat olmayan başqa maddələrlə dəyişdirilirlər. Bu metodu bir bakteriyanın həyata keçirməsi və bunu mükəmməl şəkildə etməsi heyranedicidir. Bakteriyalarda təcəlli edən bu üstün xüsusiyyətlər Allah`ın qüdrətinin təcəllilərindəndir.

• Mühitə daxil edilən xüsusi kimyəvi maddələr
Bəzi bakteriyalar da fosfat miqdarı azaldıqda mühitə kimyəvi maddələr əlavə edirlər. Bu kimyəvi maddələr mühitdəki birləşmələrdən fosfatın əldə olunmasına kömək edirlər.

• Fosfat qapısı sayının artırılması
Fosfat miqdarı azaldıqda görülən tədbirlərdən biri də fosfatın daxil olduğu qapıların sayının artırılmasıdır. Bu, fosfatın hüceyrəyə daha asan daxil olmasını təmin edir.

## Nəticə

Bakteriya ilə bağlı aparılan tədqiqatlar fosfat miqdarı azaldıqda 400-ə yaxın genin aktivləşdiyini göstərib. Elm adamları bunun bakteriya geninin 10%-ini təşkil etdiyini düşünürlər. Sistemin bir çox təfərrüatı hələ məlum deyil, indiyə qədər kəşf edilənlər isə insan orqanizminin nə qədər üstün yaradılışla yaradıldığını göstərir.

*Mən özümün və sizin Rəbbiniz olan Allah`a təvəkkül etdim. Elə bir canlı yoxdur ki, onun ixtiyarı (Allah`ın) əlində olmasın. Həqiqətən, Rəbbim düz yoldadır! (Hud surəsi, 56)*

Fosfor olmadan zülal sintezi baş verməz. Fosforun əldə edilməsi üçün digər molekullara ehtiyac var. Ona görə də canlılar bir bütün olmalıdır. Digər həyati əhəmiyyətli molekullarda olduğu kimi, fosfor üzərində düşündükdə də bu labüd nəticəyə gəlirik. Məsələn, fosforun hüceyrəyə daxil edilməsi üçün bir çox zülal və fermentin informasiyası DNT-də qeyd olunub. Ancaq bu informasiya tərkibində fosforun da olduğu molekullar tərəfindən yazılır. DNT-dəki hər hərf şəkər və fosfat zəncirindən ibarət sütuna birləşir. Ona görə, həyat mərhələ-mərhələ əmələ gələ bilməz. Allah üçün bu cür sistemi yaratmaq çox asandır. Canlılar aləmi Rəbbimizin "Ol!" əmri ilə möcüzəvi şəkildə yaradılıb.

### Fosfor çatışmazlığına qarşı hansı tədbirlər görülür?

• Forma dəyişdirmə möcüzəsi
Fosfor azaldıqda bakteriyalar elə tədbirlər görürlər ki, bunların biri belə təsadüflərə inanan təkamül nəzəriyyəsinin nə qədər əsassız olduğunu göstərmək üçün kifayətdir. Bəzi bakteriyalar fosfat çatışmazlığı zamanı



Fosforun təmin edilməsi sistemi canlıların mərhələ-mərhələ əmələ gəlməsinin mümkün olmadığını sübut edən dəlillərdən biridir. Sistemin bircə genində bir xəta baş verərsə, sistem funksiyasını yerinə yetirə bilməz. Belə bir canlı təkmilləşməz, əksinə, ölər. Bu cür sistemlərin necə işləməsi də bu prinsiplə tapılır. Mükəmməl işləyən sistemdə əlaqədar genlər mutasiyaya məruz edilir və nəticədə, meydana gələn ölüm və zədələrdən həmin genin hansı funksiya daşıdığı müəyyən edilir. Məqalədə nümunə göstərdiyimiz hissələrdən birində belə əmələ gələcək çatışmazlıq canlının ölümünə səbəb olur.

Digər şərtlər kimi, fosfat çatışmazlığında da canlı ölür. Bu sistemlərin hər biri təkamülü təkzib edir, yaradılışı sübut edir. Bakteriyadakı fosforun təmin edilməsi sistemi Allah`ın bənzərsiz yaratma sənətinə nümunədir. Bir ayədə Allah belə buyurur:

***De: "Mənə bir göstərin görüm, Allah`dan başqa ibadət etdikləriniz yer üzündə nəyi yaradıblar? Yoxsa onların göylərdə (Allah`la) bir şərikliyi var? Yaxud onlara bir kitab vermişik və oradakı bir dəlilə istinad edirlər?! Xeyr, o zalımlar bir-birinə ancaq yalan vəd verirlər. (Fatir surəsi, 40)***

# Allah yolunda

İnsanı maddi və mənəvi kirlərdən təmizləyən, nəfsini tərbiyə edərək Allah`ın razı olduğu əxlaqı mənimsəməsinə səbəb olan ən əsas ibadətlərdən biri də Allah yolunda xeyirli işlər üçün malından sərf etməkdir. Allah Peyğəmbərə möminlərin mallarından sədəqə almasını, bu yolla onların təmizlənməsini bildirmişdir. Ayədə belə hökm verilir:

***Onların mallarından sədəqə götür ki, bununla onları pak edib təmizə çıxarasan. Onlar üçün dua et. Çünki sənin duan onlar üçün bir arxayınlıqdır. Allah eşidəndir, biləndir. (Tövbə surəsi, 103)***

Ancaq insanların təmizlənməsinə səbəb olan sədəqələr Quranda bildirildiyi kimi edilən xərcləmələrdir. İnsanlar yolda gördükləri dilənçilərə xırda pullarından bir az verdikdə, köhnə paltarlarını bir-iki kasıba payladıqda və ya ac adamları doydurduqda üzərilərinə düşən məsuliyyəti artıqlaması ilə yerinə yetirdiklərinə inanırlar. Bunların hamısı Allah`ın razılığını qazanmaq üçün edildikdə Allah qatında savabı olan əməllərdir. Ancaq Allah`ın Quranda bildirdiyi hədlər var. Məsələn, Allah ehtiyacdan artıq qalanını Allah yolunda sərf etməyi bildirir:

***... Səndən (Allah yolunda) nə xərcləyəcəklərini soruşurlar. De: "(Ehtiyacınızdan) artıq qalanını!" Allah ayələri sizə belə bəyan edir ki, bəlkə fikirləşəsiniz. (Bəqərə surəsi, 219)***

İnsanın dünya həyatında yaşaması üçün lazımi ehtiyacları çox azdır. İnsanın ehtiyacları üçün lazım olan miqdardan artıq əlində olan mal ehtiyacdan artıq qalan maldır. Nəyin sərf edilməsi deyil, insanın səmimi şəkildə verə biləcəyi nədirsə, onu verməsi əsasdır. Allah hər şeyin doğrusunu bilir və ehtiyaclarından artıq qalan miqdarın nə olduğunu tamamilə



# malından sərf etməyin hikmətləri

insanların ağlına və vicdanına həvalə etmişdir. Dünya həvəsi olmayan, əvəzində axirəti satmış insanlar üçün Allah yolunda malından sərf etmək çox asan ibadətdir. Allah dünya həvəsi olanların və ya içində bir az da olsa dünyaya bağlananların mallarından Allah yolunda sərf edərək təmizlənmələrini və dünya həvəsindən əl çəkmələrini istəyir. Şübhəsiz ki, bu, möminlərin axirəti üçün çox mühüm ibadətdir.

## İNSAN SEVDİYİ ŞEYLƏRDƏN DƏ EHTİYACI OLANLARA VERMƏLİDİR

İnsanlar başqalarına yaxşılıq etdikdə həmin yaxşılığın özlərinə edilməməsini istəyirlər. Məsələn, ehtiyacı olana əşya verən adam özünün xoşlamadığı, bəlkə heç istifadə etmədiyi şeyləri verir.

Allah insanın özünə münasib bilmədiyi, köhnə, yararsız hesab etdiyi mallarını deyil, sevdiyi, bəyəndiyi əşyalarını verməsini əmr etmişdir. Bəzi insanlara sevdiyi şeyləri vermək çətin ola bilər, ancaq insan təmizlənməsi və xeyir qazanması üçün belə fədakarlıq etməlidir. Bu, Allah`ın bizə bildirdiyi mühüm sirdir. Allah bundan başqa yolla insanın əsla xeyrə qovuşmayacağını bildirmişdir:

***Sevdiyiniz şeylərdən xərcləməyincə xeyrə nail olmayacaqsınız. Sizin nə xərclədiyinizi, şübhəsiz ki, Allah bilir. (Ali-İmran surəsi, 92)***

***Ey iman gətirənlər! Qazandığınız və sizin üçün torpaqdan yetişdirdiyimiz şeylərin yaxşısından xərcləyin. Özünüzə verildiyi təqdirdə ancaq göz yumub alacağınız pis şeylərdən xərcləməyə çalışmayın. Bilin ki, Allah zəngindir, tərifəlayiqdir. (Bəqərə surəsi, 267)***



## ALLAH YOLUNDA MALINDAN SƏRF ETMƏK ALLAH`A YAXINLAŞMAQ ÜÇÜN BİR YOLDUR

Bir müsəlman üçün heç nə Allah`ın razılığından və Onun sevgisini qazanmaqdan daha üstün deyil. Mömin həyatı boyu daima onu Allah`a yaxınlaşdıran vəsilələr axtarır. Allah bir ayədə möminlərə belə bildirir:

***Ey iman gətirənlər! Allahdan qorxun, Ona yaxınlaşmaq üçün vasitə axtarın və Onun yolunda cəhd edin ki, bəlkə nicat tapasınız.(Maidə surəsi , 35)***

Allah Quranda möminlərə sirr və müjdə kimi mallarından xərclədikləri sədəqələrin Ona yaxınlaşmağa səbəb olduğunu bildirmişdir. Odur ki, xoşladığı şeylərdən və ehtiyacından artıq qalandan sərf etmək müsəlmanlar üçün çətin deyil, əksinə, Allah`a sədaqət və sevgilərini göstərmək üçün çox dəyərli fürsətdir. Mövzu ilə bağlı bir ayə belədir:

***Bədəvilərdən eləsi də vardır ki, Allah`a və axirət gününə inanır, xərclədiyini Allah dərgahında yaxınlıq və Peyğəmbərin dualarına nail olmaq üçün vasitə sayır. Həqiqətən də bu, onlar üçün yaxınlaşmağa bir vasitədir. Allah onları Öz mərhəmətinə qovuşduracaqdır. Həqiqətən, Allah bağışlayandır, rəhmlidir. (Tövbə surəsi, 99)***

## ALLAH ÜÇÜN VERİLƏN HƏR SƏDƏQƏNİN GÖZƏL MÜKAFATI VAR

Allah Onun yolunda malından xərcləməklə bağlı bir sirr də verir: insanın fədakarlıq edərək malından sərf etdiyi şey mütləq özünə geri qayıdacaq. Bu, Allah`ın mühüm vədidir. Allah Onun yolunda yoxsulluq qorxusu keçirmədən mallarını sərf edən insanlara həyatları boyu heç gözləmədikləri nemətlərlə ruzi verəcək. Xeyir üçün sərf etdikləri hər şey xeyir kimi özlərinə qayıdacaq. Allah`ın bu vədinin bildirildiyi ayələrdən bəziləri belədir:



*İnsanları doğru yola yönəltmək sənin borcun deyildir. Allah kimi istərsə, onu doğru yola yönəldər. Malınızdan sərf etdiyiniz hər hansı bir şey ancaq özünüz üçündür. Siz onu yalnız Allah`ın razılığını qazanmaq üçün verirsiniz. Malınızdan verdiyiniz hər hansı bir şeyin əvəzi tamamilə sizə ödəniləcəkdir. Sizə əsla zülm edilməz! (Bəqərə surəsi, 272)*

*... Allah yolunda nə xərcləsəniz, əvəzi sizə tam ödənilər və sizə zülm edilməz. (Ənfal surəsi, 60)*

*De: "Həqiqətən, Rəbbim istədiyi qullarına ruzisini bol edər, (istədiyinə də) onu azaldar. Nə xərcləsəniz, Allah onun əvəzini verər. O, ruzi verənlərin ən yaxşısıdır!" (Səba surəsi, 39)*

Möminlər mallarını və canlarını Allah yolunda sərf edərkən Allah`ın rizasını və cənnətini istəyirlər, ancaq ayələrdən göründüyü kimi, Allah onlara Onun yolunda nə xərcləsələr, əvəzini verəcəyini bildirir. Ayədə bildirildiyi kimi, Allah əvəzinə başqasını verir. Bunlar həm dünyadakı nemətlər, həm də Allah`ın cənnətdə möminlər üçün hazırladığı nemətlərdir. Xəsislik edib mallarından Allah yolunda xərcləməyən və ya Allah`ın hədlərini aşaraq mallarını artırmağa çalışanların isə Allah bərəkətlərini azaldar. Bununla bağlı ayələrdən biri faiz alanların vəziyyətini izah edir:

*Allah sələmi puç edir, sədəqələri isə artırır. Allah kafirləri və günahkarları sevməz. (Bəqərə surəsi, 276)*

Allah Öz yolunda mallarından sərf edənlərin Allah dərgahındakı mükafatını başqa ayələrində belə bildirir:

*Mallarını Allah yolunda sərf edənlərin halı yeddi sünbül verən bir toxuma bənzər ki, bu sünbüllərin hər birində yüz ədəd dən vardır. Allah istədiyi kimsə üçün bunu qat-qat artırır. Allah (lütfü ilə) genişdir. (Bəqərə surəsi, 261)*



***Ey iman gətirənlər! Sədəqələrinizi malını riyakarlıqla sərf edən, Allah`a və axirət gününə inanmayan şəxs kimi, minnət qoymaq və əziyyət verməklə puça çıxarmayın. Belə şəxslərin halı üzərində bir az torpaq olan qayaya bənzər ki, şiddətli bir yağış o torpağı (yuyub) aparar və qayanı çılpaq bir daş halına salar. Onlar qazandıqlarından bir şeyə nail olmazlar. Şübhəsiz ki, Allah kafirləri haqq yoluna yönəltməz! Mallarını Allah`ın razılığını qazanmaq və nəfslərini sabitqədəm etmək yolunda sərf edənlər uca təpənin üstündə olan bir bağa bənzərlər ki, ora düşən bol yağış onun meyvələrini ikiqat artırar. Əgər bol yağış yağmasa, az bir şəbnəm (də ona kifayət edər). Həqiqətən, Allah nə etdiyinizi görəndir! (Bəqərə surəsi, 264-265)***

Bu ayələrin hər biri Allah`ın Quranda iman gətirənlərə bildirdiyi sirlərdir. İman gətirənlər ancaq Allah`ın razılığını, rəhmətini və cənnətini qazanmaq üçün mallarından sərf edirlər. Allah`ın ayələrdə bildirdiyi bu sirləri bildiklərinə görə, Allah`ın bərəkətinə və rəhmətinə ümid bəsləyirlər. Onlar Allah yolunda mallarını və canlarını sərf etdikcə, halal-harama diqqət etdikcə Allah onların zənginliyini artırır, işlərini asanlaşdırır, Allah yolunda sərf etmək üçün daha çox imkanlar yaradır. Bu sirrə heç bir narahatlıq və gələcək qorxusu keçirmədən, Allah`dan qorxub-çəkinərək Allah`ın hədlərini qoruyan hər mömin öz həyatında şahid olar.



## CƏNAB ADNAN OKTARIN AÇIQLAMALARI: "ALLAH YOLUNDA SƏRF EDİLƏN HƏR ŞEY BƏRƏKƏTƏ SƏBƏB OLAR"

ADNAN OKTAR: *Peyğəmbərimiz (s.ə.v) hədislərində hz. Mehdinin (ə.s) dövründə belə iqtisadi böhran olacağını, bütün dünyanı bürüyəcəyini, hətta yağışların azalacağını da hərtərəfli bildirib. Bunların ardınca bahalığın, bərəkətsizliyin yayılacağını xəbər verib. Hətta insanların bazarda: "Mən bu gün də qazana bilmədim, bu gün də qazancım olmadı", - deyə şikayətlənəcəyini bildirir. Bu da hz. Mehdinin (ə.s) zühur əlaməti olduğuna görə bir xeyir var. Səbəbi insanların təvəkkülsüz olmaları, Allah`ın verdiyi ruzini özlərinin qazandığını zənn etmələri, qazanc qorxusu, pul yığma həvəsi, kasıblara pul verməmə fikri, zəkat və sədəqədən qaçmaları bu nəticəyə gətirib çıxarır. Ancaq müsəlmanlar bol-bol sədəqə, zəkat versələr, malı, pulu, qızıl-gümüşü yığıb saxlamasalar, bunları Allah yolunda xərcləsələr, bu ölkələrdə belə problem qətiyyən olmaz. Pulu verməsələr, durğunluq olar. Pul, mal, fabriklər donar, hər yerdə durğunluq olar və nəticədə, iqtisadi ölüm baş verər. Belə ki, hal-hazırda da iqtisadiyyat komadadır.Bu, Peyğəmbərimizin (s.ə.v) bildirdiyi hadisədir.*

(Cənab Adnan Oktarın "Al Quds" qəzetinə verdiyi müsahibədən. Noyabr 2008-ci il)



# Fosillər təkamülü təkzib edir





## Qovaq yarpağı

Dövr: Kaynozoy erası, Miosen dövrü
Yaşı: 15 milyon il
Bölgə: Stuart Sprinqz, Nevada, ABŞ

Söyüdkimilər (lat. Salicaceae) fəsiləsinə aid olan qovaq ağacları milyon illərdir heç bir dəyişikliyə məruz qalmadan yaşayırlar. Yarandıqları andan üzvi və quruluş xüsusiyyətləri ilə dövrümüzdəki xüsusiyyətləri arasında heç bir fərq yoxdur. 15 milyon il əvvələ aid şəkildəki qovaq yarpağı fosili də bu faktı sübut edir.









## *Çəmən ağcaqanadı*

Dövr: Kaynozoy erası, Eosen dövrü
Yaşı: 48-37 milyon il
Bölgə: ABŞ

Bütün digər canlı növlərində olduğu kimi, çəmən ağcaqanadlarının da dəyişməməsi təkamülçülərin iddialarının doğru olmadığını sübut edir. Təkamül nəzəriyyəsi XIX əsrin ibtidai elmi səviyyəsində irəli sürülmüş, cahillikdən qəbul edilmiş, ancaq XX-XXI əsrlərin elmi ilə təkzib edilmiş nəzəriyyədir.





Düşünən İnsan, Fevral 2014

# DİNSİZ MİLLƏT YAŞAYA BİLMƏZ





İnsanların bəziləri din əxlaqının yalnız bəzi ibadətlərdən ibarət olduğuna dair yanlış inanca sahibdirlər. Halbuki, həqiqi din Allah'ın fərz buyurduğu oruc tutmaq, 5 vaxt namaz qılmaq, zəkat vermək kimi ibadətlərlə yanaşı, insan həyatının hər anını əhatə edir və beləcə, insanlara Quranda təsvir edilən dünyagörüşü və gözəl əxlaq qazandırır. Dininə bağlı, səmimi müsəlman Allah'ın razılığını, rəhmətini və cənnətini qazanmaq üçün həyatının hər anında Quranda təsvir edilən bu üstün əxlaqı yaşamağa cəhd edir. Heç vaxt və heç bir mühitdə dürüstlüyündən, səmimiyyətindən, mülayim rəftarlarından, hörmət və sevgidən, qısası, gözəl əxlaqından vaz keçmir. Məhz bu səbəblə də Quran əxlaqına sahib olan insanların meydana gətirdikləri birliklərdə hər insanın istədiyi bu üstün xüsusiyyətlər yaşanır.

Məsələn, Quran əxlaqına uyğun yaşayan bir ailədə hal-hazırda ailələrdə yaşanan problemlərin heç biri yaşanmır. Hal-hazırda, ata-anasına itaət etməyən, doğru-yanlışı bir-birindən ayıra bilməyən uşaqlara və həmçinin övladlarını başıboş buraxan, öz aralarında belə yola getməyən valideynlərə çox rast gəlinir. Bu evlərdə sevgi, hörmət, mərhəmət və şəfqət deyil, həmişə mübahisə və təhqir mövcud olur. Halbuki, Quran əxlaqı yaşandıqda ata-anaya itaət edən, hətta Allah'ın əmrinin tələbi olaraq onlara: «Of», -belə deməyən, doğru və yanlışı hələ kiçik yaşlarından ayırd edə bilən, vicdanlı olub pisliklərdən uzaq olan uşaqlar böyüyür. Uşaqlarını din əxlaqı ilə böyüdərək dövlətə və millətə xeyirli olmaları üçün səy göstərən, öz aralarında da mərhəmətli olan, hərəkətləri ilə uşaqlarına nümunə olan valideynlər və beləliklə də hörmət və həmrəyliklə bir-birinə bağlı ailələr meydana gəlir.

Ailə isə dövlətin ən əsas birliyidir. Ailə quruluşu güclü olan millətin dövlət quruluşu da çox güclü olur. Ancaq ailə quruluşu çökmüş, mənəvi dəyərlərini itirmiş, fərdləri arasında sevgi, hörmət, sədaqət, birlik və bərabərlik duyğularından məhrum olan bir dövlətin güclü olması mümkün deyil. Xüsusilə dinsiz cəmiyyətin hədəf alındığı bəzi ölkələrdə bu mənəvi çökmə böyük sürət qazanır və əxlaqi degenerasiya cəmiyyətin hər addımında özünü göstərir. Belə bir cəmiyyətdə həyat yalnız qarşılıqlı maddi mənfəətlər üzərinə qurulur.

Bir-birlərinə çox yaxın ailə fərdləri arasında belə sevgi, qardaşlıq, həmrəylik, fədakarlıq və sədaqət duyğuları kimi mənəvi dəyərlər korlandıqda artıq o millətin varlığını davam etdirə bilməsi çox çətinləşir. Çünki bu degenerasiya yalnız ailə mühitlərində yaşanmır, cəmiyyətin bütün seqmentlərinə yayılır. Məktəblərdə, dost



*O, dönüb getdikdə yer üzündə fitnə-fəsad törətməyə, əkinləri və nəsilləri məhv etməyə çalışar. Allah isə fitnə-fəsadı sevmir. Ona: "Allah'dan qorx!"– deyildikdə, lovğalıq onu daha da günaha sürükləyər. Ona cəhənnəm kifayət edər. Ora nə pis yataqdır! (Bəqərə surəsi, 205-206)*



yığıncaqlarında sevgi və hörmət yerinə, həsəd, ikiüzlülük, lağlağı, dedi-qodu kimi pis rəftarlar ortaya çıxır. İş yerlərində də bütün sistem mənfəət üzərində qurulur. Heç kim başqasının haqqını qorumur, ədalət axtarılmır, məzlumlara qarşı şəfqət və mərhəmət göstərilmir. Belə bir millətin fərdlərinin bir yerdə sülh və dinclik içində yaşamaları qeyri-mümkün hala gəlir.

Sonrakı bölmələrdə dinsizliyin ailə quruluşunu və cəmiyyətdəki ictimai əlaqələri çökdürməsindən başqa dövlətə necə zərərlər verə biləcəyi daha ətraflı olaraq araşdırılacaq. Bu araşdırma nəticəsində ortaya çıxan dəlillər «Dövlətimə bağlıyam, millətimi sevirəm», - deyən hər fərdin dinsizliklə necə ciddi mübarizə aparmasının vacib olduğunu bir daha ortaya qoyacaq.

## DARVİNİZMİN YETİŞDİRDİYİ TERRORİSTLƏR

Bu gün dünyanın hər yerində terror, soyqırım və qırğınlar baş verir, günahsız insanlar vəhşicəsinə öldürülür, süni səbəblərlə bir-birlərinə düşmən hala gətirilən birliklər ölkələri qana bulayır. Bir-birlərindən çox fərqli tarixlərə, mədəniyyətlərə və ictimai quruluşlara sahib olan ölkələrdə meydana gələn bu hadisələrin hər ölkədə özünə xas bəzi səbəb və qaynaqları ola bilər. Ancaq bir az araşdırıldıqda hər birinin maraqlı ortaq cəhəti olduğu məlum olur. Bu, dinsiz ideologiyaların cəmiyyətlər üzərində yaratdığı mənəvi təxribatdır.

Bu dinsiz ideologiyaların əsas ortaq xüsusiyyətlərindən biri isə insanları darvinizmlə təlimləndirmələridir. Əvvəldə ifadə etdiyimiz kimi, təkamül nəzəriyyəsi insanların özlərini məsul hiss edəcəkləri və axirətdə hesab verəcəkləri bir yaradıcı olduğu həqiqətini rədd edir. Bu nəzəriyyəyə inanan insan da özünün məsuliyyətsiz və başıboş olduğunu zənn edir. Bu səbəbdən də: «Onsuz da heç kimə hesab verməyəcəyəm», -deyə düşünərək hər cür insafsızlığı, əxlaqsızlığı və vicdansızlığı asanlıqla edir.

Təkamül nəzəriyyəsinin terrorizmə verdiyi ikinci əhəmiyyətli dəstək isə bu nəzəriyyənin insanı inkişaf etmiş heyvan olaraq göstərməsidir. Başqa sözlə, darvinizmə inananlar bir insanın öldürülməsini hər hansı bir heyvanın öldürülməsi qədər asan qəbul edirlər. Terrorun bütün dünyada olduğu kimi, ölkəmizdə də körpələri, qadınları, yaşlıları və minlərlə günahsız insanı gözünü belə qırpmadan öldürə bilməsinin arxasındakı səbəb darvinist anlayışdır.

Darvinizmin elmi baxımdan heç bir əsası

*Allah'la əhd bağladıqdan sonra onu pozan, Allah'ın qovuşdurulmasını əmr etdiyi şeyləri kəsən və yer üzündə fitnə-fəsad törədənlərə gəlincə, onlar üçün lənət və pis yurd vardır. (Rəd surəsi, 25)*



olmayan saxtakarlıq olduğunun insanlara izah edilməsinin əhəmiyyəti bu nöqtədə təkrar ortaya çıxır. Darvinizmi elmi həqiqət zənn edən, dini duyğulardan uzaq, Allah qorxusu olmayan bəzi insanlara darvinizmə əsaslandırılan ideologiyalar təlqin edildikdə bunlara asanlıqla aldanırlar. Bu təlqindən sonra hər kəs kimi yaşayan sadə bir insan əlinə silah alıb dağa çıxır, günahsız insanların canına qəsd edir və dövlətinə qarşı qiyam qaldırır. Çünki bu insanlara Allah, din, vətən, millət və bayraq sevgisi yerinə, dinsizliyi və qanlı qətliamları ilə tanınmış Stalini, Lenini, Maonu sevmələri, insanı heyvan kimi göstərən Darvinin nəzəriyyəsinə görə düşünmələri öyrədilir.

Halbuki, Allah'ın varlığının dəlilləri və Quranda bildirilən gözəl əxlaq izah edildikdə, insanların düşmənçiliyi, müharibə və xaos mühitlərini özlərinə hədəf edən bu cür ideologiyalara aldanmaları qeyri-mümkündür. Allah'a iman edən, axirətdə hər etdiyinin hesabını verəcəyini bilən bir insan dövlətinə və millətinə də bağlı olur. Çünki Allah Quranda insanları fitnə-fəsad törətməkdən belə çəkindirmişdir:

***O, dönüb getdikdə yer üzündə fitnə-fəsad törətməyə, əkinləri və nəsilləri məhv etməyə çalışar. Allah isə fitnə-fəsadı sevmir. Ona: "Allah'dan qorx!"– deyildikdə, lovğalıq onu daha da günaha sürükləyər. Ona cəhənnəm kifayət edər. Ora nə pis yataqdır! (Bəqərə surəsi, 205-206)***

***Allah'la əhd bağladıqdan sonra onu pozan, Allah'ın qovuşdurulmasını əmr etdiyi şeyləri kəsən və yer üzündə fitnə-fəsad törədənlərə gəlincə, onlar üçün lənət və pis yurd vardır. (Rəd surəsi, 25)***



Bu ayələrdən də aydın olduğu kimi, Allah'dan qorxan bir insanın dövlətinə, millətinə ən kiçik zərər toxunduracaq bir hərəkətə göz yumması mümkün deyil. Çünki Allah'dan qorxan bir insan Onun məmnun olmayacağı və cəhənnəmdə sonsuz əzabla qarşılaşacağı hər cür rəftardan çəkinər.

Allah'a və axirət gününə inanmayan bir insan isə heç kimə hesab verməyəcəyini zənn edərək hər cür pisliyi asanlıqla edə bilər.

Anarxiya, terror və qarışıqlıq bəlasının mənbəyində insanların hörmət, sevgi, mərhəmət kimi gözəl duyğulardan uzaqlaşması, əxlaqi və insani dəyərlərini itirməsi dayanır. Bu bəladan xilas olmaq üçün dinsizliyin aradan qaldırılması və insanlara Allah qorxusunun və Quran əxlaqının öyrədilməsi vacibdir.

Bunu unutmamaq lazımdır ki, dövlətinə və millətinə qarşı qiyam qaldırıb azğınlıq edənlər



*Əgər onlara yer üzündə hökmranlıq versək, onlar namaz qılar, zəkat verər, yaxşı işlər görməyi əmr edib, pis işlər görməyi qadağan edərlər. Bütün işlərin aqibəti Allah'a aiddir. (Həcc surəsi, 41)*

*Allah eləcə də iki kişi barəsində məsəl çəkdi; onlardan biri laldır, heç bir şeyə gücü çatmır və öz ağasına bir yükdür. Onu hara yollasa, xeyirlə qayıtmaz. Məgər doğru yolda olub ədalətli işlər görməyi əmr edən bir kimsə ilə belə bir adam eyni ola bilərmi? (Nəhl surəsi, 76)*



qədər bu vəziyyətə tamaşaçı qalaraq imkanları olduğu halda, dövlətinə dəstək olmayanlar da eyni materialist dünyagörüşünə sahibdir. Laqeyd davranan insanların tək məqsədləri öz həyatlarını davam etdirə bilmələridir. Ətraflarında baş verənlər onlara zərər vermədiyi müddətcə narahat olmayan bu insanlar dinin insanlara qazandırdığı fədakarlıq, qardaşlıq, dostluq, dürüstlük və xidmət anlayışından məhrumdurlar. Bu insanların şərəfli bir hədəfi yoxdur. Həyatları boyu yalnız dövlətin imkanlarından istifadə edərək, millətin qarşı-qarşıya olduğu təhlükələrdən xəbərsiz şəkildə öz nəfslərini razı salmağa çalışırlar. Bu cür insanların vəziyyəti Quranda belə açıqlanır:

***Allah eləcə də iki kişi barəsində məsəl çəkdi; onlardan biri laldır, heç bir şeyə gücü çatmır və öz ağasına bir yükdür. Onu hara yollasa, xeyirlə qayıtmaz. Məgər doğru yolda olub ədalətli işlər görməyi əmr edən bir kimsə ilə belə bir adam eyni ola bilərmi? (Nəhl surəsi, 76)***

Ayədə də ifadə olunduğu kimi, düz yolda olan, dininə bağlı, Allah'dan qorxub çəkinən, mənəvi dəyərlərə sadiq olan, vətəninə və millətinə xidmət şövqü içində olan bir insan olduğu cəmiyyətə böyük fayda verər. Buna görə, insanların gerçək dini öyrənmələri və Quran əxlaqına uyğun yaşamaları çox vacibdir. Bu üstün əxlaqı yaşayan insanları isə Allah bir ayəsində belə təyin etmişdir:

***Əgər onlara yer üzündə hökmranlıq versək, onlar namaz qılar, zəkat verər, yaxşı işlər görməyi əmr edib, pis işlər görməyi qadağan edərlər. Bütün işlərin aqibəti Allah'a aiddir. (Həcc surəsi, 41)***

# DEMOKRATİYANIN ƏSAS PRİNSİPLƏRİ QURANDA BİLDİRİLİB



*Peyğəmbərimizin (s.ə.v) yaşadığı Əsri-səadət dövründə müasir demokratik prinsiplər ən gözəl şəkildə tətbiq edilmişdir. Çünki insan hüquqları, demokratiya, azadlıq, gözəl əxlaq, elm, incəsənət, estetika kimi Quran əxlaqının tələbi olan anlayışların hamısı demokratik cəmiyyətin əsas prinsiplərini təşkil edir. Başəriyyətə xoşbəxtlik və həyat sevinci təqdim edən bu model Allah`ın Quranda bildirdiyi və qulları arasında tətbiq edilməsini istədiyi əsl müsəlman əxlaqıdır.*

Peyğəmbərimizin (s.ə.v) yaşadığı Əsri-səadət dövründə müasir demokratik prinsiplər ən gözəl şəkildə tətbiq edilmişdir. Çünki insan hüquqları, demokratiya, azadlıq, gözəl əxlaq, elm, incəsənət, estetika kimi Quran əxlaqının tələbi olan anlayışların hamısı demokratik cəmiyyətin əsas prinsiplərini təşkil edir. Başəriyyətə xoşbəxtlik və həyat sevinci təqdim edən bu model Allah`ın Quranda bildirdiyi və qulları arasında tətbiq edilməsini istədiyi əsl müsəlman əxlaqıdır.

## İslamda fikir azadlığı var

Düşüncəsi və vicdanı azad fərdlərdən təşkil olunmuş cəmiyyət demokratiyanın əsas prinsiplərindən biridir. Fikir və inanc azadlığının əhəmiyyəti isə Quranda 1400 il əvvəl Allah tərəfindən bildirilmişdir.

Cəmiyyətdə çox fərqli inanclara mənsub insan qrupları var. Belə bir cəmiyyətdə yaşayan müsəlmanlar qarşılarındakı insanın inancından asılı olmayaraq ona qarşı anlayışlı olmaqla, bağışlamaqla, ədalətli və xeyirxah davranmaqla məsuldurlar. İman gətirənlər Allah`ın dininə gözəl tərzdə, sülh və şəfqətlə dəvət etməklə məsuldurlar. İnsanlara fikir azadlığı və yaşamaq hüququ təmin edən və bu hüquqlarının keşiyində duran İslamda insanlar arasında gərginliyi, anlaşılmazlığı, bir-birləri haqqında pis danışmağı və hətta pis fikirdə olmağı (sui-zənn etməyi) qa-



dağan edən əmrlər var. İslam terror və zorakılıq hərəkətlərinə tamamilə qarşı olduğu kimi, insanlara ən kiçik psixoloji təzyiq olunmasını da qadağan edir. İnsanların bir dinə inanmağa və ya o dinin ibadətlərini yerinə yetirməyə məcbur edilməsi İslama ziddir. Çünki İslamda səmimi iman azad iradə və vicdanla mümkündür. Əlbəttə, müsəlmanlar Quranda buyurulan əxlaqi normaları tətbiq etməyi bir-birlərinə xatırlada bilər və bir-birlərini təşviq edə bilərlər. Quran əxlaqının ən gözəl sözlə insanlara təbliğ edilməsi bütün iman gətirənlərin boynuna düşən məsuliyyətdir. İman gətirənlər ***"Rəbbinin yoluna hikmətlə, gözəl öyüd-nəsihətlə dəvət et..." (Nəhl surəsi, 125)*** ayəsinə əsasən, din əxlaqını təbliğ edərlər, ancaq ***"İnsanları doğru yola yönəltmək sənə aid deyildir. Allah kimi istərsə, onu doğru yola yönəldər" (Bəqərə surəsi, 272)*** ayəsini dərk edərək davranarlar. Əsla məcbur etməz, insanlara maddi və ya mənəvi təzyiq göstərməzlər. Dünyəvi imtiyazlar vəd verərək insanı din əxlaqı ilə yaşamağa istiqamətləndirməzlər. Təbliğlərinin əvəzində mənfi cavab aldıqda müsəlmanlar: ***"Sizin dininiz sizə, mənim dinim də mənədir!" (Kafirun surəsi, 6)*** - deyə cavab verərlər.

Dünyada xristianlar və yəhudilərdən başqa buddist, hindu, ateist, deist, bütpərəst kimi fərqli inanclara mənsub insan qrupları yaşayır. Belə bir dünyada yaşayan müsəlmanlar qarşılarındakı insanın inancından asılı olmayaraq onunla anlayışla, ədalətlə və xeyirxah davranmaqla məsuldurlar. İman gətirənlər uca Allah`ın dininə gözəl tərzdə, xoş məramla dəvət etməklə məsuldurlar. Doğrulara əməl edib-etməmək, iman gətirib-gətirməmək qərarı qarşı tərəfin üzərinə düşən məsuliyyətdir. Bir

insanı iman gətirməyə məcbur etmək, bəzi şeyləri zorla qəbul etdirməyə çalışmaq Quran əxlaqına ziddir. İnsanların ibadət etməyə məcbur edildiyi cəmiyyət modeli İslam dininə uyğun deyil. Çünki inanc və ibadət ancaq Rəbbimiz Allah`a aiddir və insanın öz seçimi ilə olduqda dəyəri olur. Əgər bir sistem insanları inanca və ibadətə məcbur etsə, bu təqdirdə, insanlar o sistemdən qorxduqlarına görə dindar olarlar. İslamda isə insanların vicdanən tamamilə azad olduğu mühitdə Allah rizası üçün səmimi şəkildə edilən ibadətlər qəbul edilir.

## Allah dərgahında din, dil, irq, rəng, məzhəb ayrı-seçkiliyi yoxdur

Uca Rəbbimiz Quran ayələri ilə üstünlüyün irq, dil və dinlə ölçülmədiyini, Allah qorxusu, iman, gözəl əxlaq, ixlas və təqvanın Öz qatında üstünlük dərəcəsi olduğunu bildirmişdir:

***Ey insanlar! Biz sizi kişi və qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız Ondan ən çox qorxanınızdır. Həqiqətən, Allah biləndir, xəbərdardır. (Hucurat sursi, 13)***



Dünyəvilik, demokratiya anlayışları İslam dininin təməlində var və Quranda əsas yer tutur. Çünki İslam dini fikir və inanc azadlığına əsaslanır və başqa dinlərə mənsub şəxslərin, hətta inancsız insanların da hüquqlarını tanıyır. İslam dininin əsas prinsipləri olan şəfqət, mərhəmət və azadlıq anlayışı dünyəvilik və demokratiyanın da əsasını təşkil edir.

Demokratik sistemdə də siniflər, fərdlər, ailələr bir təbəqənin öhdəsinə verilmir, millətin bütün fərdləri dövləti idarəetmədə iştirak edə bilər və öz sözünü deyə bilər, bütün vətəndaşlar bərabər hüquqlara malikdir. Demokratiyanın əsas prinsipi olan bu qanunlar ən mükəmməl şəkildə Quranda öz əksini tapır.

Allah sərhədləri bir-birinə çox yaxın ölkələrdə belə müxtəlif dillər, hər millətə xas həyat tərzi, danışıq üslubu və adət-ənənələr yaradıb. Məsələn, almanların, fransızların, italyanların, türklərin və çinlilərin dilləri, danışıq üslubu, adət-ənənələri və yeməkləri bir-birindən fərqləndir. Uca Allah`ın müxtəlif dilləri, rəngləri, irqləri və millətləri yaratması Onun müxtəliflik sənətinin bir təcəllisidir. Allah bu müxtəlifliyi dünyaya gözəllik olması üçün yaradıb. Əgər istəsəydi, bütün dilləri, millətləri və insanların rənglərini eyni yarada bilərdi. Lakin adətləri, yeməkləri, geyimləri və incəsənəti fərqli olan xalqları yaratması insanların bir-birləri ilə tanış olub qaynaşması üçün yaratdığı nemətdir. Allah bunu Quranda belə bildirmişdir:

***Göylərin və yerin yaradılışı, dillərinizin və rənglərinizin müxtəlifliyi də Onun dəlillərindəndir. Həqiqətən, bunda bilənlər üçün ibrətamiz dəlillər vardır! (Rum surəsi, 22)***





## Demokratiyanın əsas prinsiplərindən olan dünyəvilik Quranın əsasını təşkil edir

Bir insanın İslam dinini seçməsi tamamilə öz iradəsinə bağlıdır. İslamı qəbul etdikdən sonra da Quranda əmr edilənləri yerinə yetirməsi və ya haramlardan çəkinməsi tamamilə onun vicdanına bağlıdır. Təbii ki, müsəlmanlar bir-birlərinə Quranda izah edilən əxlaqi xüsusiyyətləri xatırlada bilərlər. Ancaq əsla məcbur etməzlər, insana təzyiq göstərərək din əxlaqı ilə yaşamağa məcbur etmək olmaz.

Bu, Quranda belə bildirilir:

***Dində məcburiyyət yoxdur. Artıq doğruluq azğınlıqdan ayırd edildi. Hər kəs taqutu inkar edib Allah`a iman gətirsə, o, artıq ən möhkəm bir ipdən yapışmış olur. Allah eşidəndir, biləndir! (Bəqərə surəsi, 256)***

Dünyəvilik həm vicdan azadlığı kimi insanpərvər dəyərə xidmət etdiyinə, həm də bu dəyərə böyük əhəmiyyət verən İslam dininə uyğun olduğuna görə, bu prinsipi hər vətəndaş mənimsəməli və müdafiə etməlidir.

Azərbaycan Respublikasının ümummilli lideri Heydər Əliyev dünyəvilik prinsipini belə açıqlamışdır:

*"Bizim dövlətimiz dünyəvi dövlətdir, ancaq biz dindən ayrı deyilik".*

Qurani-kərimdə bir kəsin din əxlaqı ilə yaşamasının öz qərarından asılı olduğu, dini qəbul etməsə də, bunun üçün ona zorakılıq edilməməsi bildirilmişdir:



*Biz Quranı sənə məşəqqət çəkməyin üçün nazil etmədik! (Biz onu Allah`dan) qorxan bir kimsəyə yalnız öyüd-nəsihət olaraq (göndərdik). (Taha surəsi, 2-3)*

## Quranda sosial ədalət əmr olunur

Demokratiyanın təməlində sosial ədalət durur. İslamın da əsası sosial ədalətdir. ***"Əgər müşriklərdən biri səndən aman diləsə, ona aman ver ki, Allah`ın sözünü eşitsin. Sonra onu özünün xatircəm olduğu yerə çatdır. Çünki onlar bilməyən bir camaatdır" (Tövbə surəsi, 6)*** ayəsində inancsız birisi müsəlmandan kömək istədikdə belə ona kömək edilməsinin, hətta onu mühafizə etmək vəzifəsini üzərinə götürərək gedəcəyi yerə qədər ötürülməsinin əmr edilməsi müsəlman cəmiyyətdə hər kəsin qorunduğunu göstərir. Belə bir cəmiyyətdə yıxılana təpik vurulmur, əksinə, çətinlikdə olan qorunur. Xəstə, əlil və ya yaşlı insanlar daha çox şəfqətə layiqdir və daha çox qorunurlar. Qadın ikinci sinif vətəndaş deyil, dəyər verilən, sevgi bəslənilən insandır. Quranda daima qorunan və üstün tutulan qadın Qurana tabe olan cəmiyyətdə də dəyərini tapar. Ona görə, belə bir cəmiyyətdə əzilən kütlələr olmur. İslam cəmiyyətində var-dövlət üstünlük ölçüsü deyil. Müsəlman cəmiyyətdə onsuz da yoxsul



insan yoxdur. Var-dövlət toplanıb saxlanılmayan, insanların bir-birlərinə daima kömək etdiyi cəmiyyətdə əsla yoxsulluq olmaz. Quran insanların haqqını ödəməyi əmr etdiyinə görə, zəhmətin əvəzi artıqlaması ilə ödənilir. İş qabiliyyəti olmayanlara da maddi yardım göstərilir. Lakin, eyni zamanda, hər kəs Rəbbimizin ***“...Allah zəngin, siz isə yoxsulsunuz...” (Muhəmməd surəsi, 38)*** ayəsinə uyğun davranır. Heç kim digərinə maddi üstünlük iddiası etməz, çünki o cür zəngin həyatda belə, əslində, hər kəs yoxsul olduğunu dərk edir. Bütün mülkün Allah`a aid olduğunu və Allah istəsə, dərhal bunu ondan alacağını çox yaxşı bilir. Quranın əmr etdiyi bu sistem sosial ədalət üzərində qurulmuşdur. Sosial ədalət sistemi Peyğəmbərimizin (s.ə.v) Əsri-səadət dövründə tətbiq olunmuşdur və yenidən hz. Mehdinin (ə.s) dövründə tətbiq olunacaq.

Şübhəsiz ki, təkcə insanların həsrətini çəkdiyi əsl ədalət deyil, habelə demokratiya, sevgi, qardaşlıq, dostluq, sülh, əmin-amanlıq da, Allah`ın izni ilə, çox yaxında hz. Mehdi (ə.s) vəsiləsi ilə bütün dünyaya hakim olacaq. İnsanlar imandan qaynaqlanan sevinc hissini və bərəkəti görəcəklər. Ayələrin işarə etdiyinə və Peyğəmbərimizin (s.ə.v) hədislərinə, böyük İslam alimlərinin sözlərinə əsasən, yaşadığımız axırzamanda insanlar həsrətini çəkdikləri azadlıq və əmin-amanlığa qovuşacaqlar.

Düşünən İnsan, Fevral 2014

# DÜNYA QADINA BAXIŞINI YENİLƏMƏLİDİR

Pakistanlı şagird Malala Yusifzai uzun müddətdir bir çox insanın görmək istəmədiyi bir dramı ən təmiz, ən səmimi şəkildə dünyaya yenidən xatırlatdı: İslam dünyasında qız olmaq çox çətindir... Əslində, təkcə İslam dünyasında deyil, bütün dünyada qadın olmaq çətindir, ancaq bəzi müsəlman ölkələrində xurafatçılığın qazandığı güc və zorakılığa meyillilik bu çətinliyi daha diqqətçəkən edir.

BMT-nin məlumatlarına əsasən, dünya əhalisinin 49.7%-i qadındır və bir çox ölkədə qadınlar ancaq məruz qaldıqları təzyiq və zorakılıqla yadda qalırlar. İş, siyasət, təhsil kimi həyatın müxtəlif sahələrində qadınlar hər cür cəmiyyətdə gizli və ya açıq ayrı-seçkiliklə qarşılaşırlar. Dünyanın 500 böyük firmasının sadəcə 13 qadın idarəçisi var. Siyasətdə də vəziyyət fərqli deyil, milli məclislərdəki qadınların sayı sadəcə 23 ölkədə 30%-dir. Digər tərəfdən, dünyada 2 milyon yoxsulun 70%-ini qadınlar təşkil edir, oxuma-yazma bilməyənlərin 2/3-si qadınlardır.

Müsəlman ölkələrə baxdıqda isə bütün bu sualların daha ciddi ölçüdə olduğunu görürük. Bunun səbəbi bir çox İslam ölkəsində qadının ikinci dərəcəli hesab olunmasına dair müxtəlif İslam mənbələrindəki xurafatların dəlil göstərilməsidir. Başqa sözlə, qadına din adı altında təzyiq göstərilməsi qadın azadlığı tərəfdarlarının dini dəyərlərə qarşı çıxırmış kimi göstərilməsidir.

Ancaq istər Peyğəmbərimizin (s.ə.v) həyatını təhlil etdikdə və istərsə də Quran ayələrinə baxdıqda görürük ki, İslama görə qadın indiki müsəlman ölkələrində olduğu vəziyyətdən fərqli mövqedə olmalıdır. Quranda qadın və kişi hər cəhətdən bərabərdir. Peyğəmbərimizin (s.ə.v) dövründə də qadınlar kişilərlə birlikdə hər sahədə yer tutublar. Rəsulullahın xanımı hz. Xədicənin bölgənin ən tanınmış iş qadınlarından biri olması qadının sosial həyatda necə aktiv olduğunu göstərən mühüm dəlildir. Həmin dövrdə həm İslamla yeni tanış olanların təhsilində, həm cəmiyyətdə nizamın təmin olunmasında, həm də mübarizələrdə qadın və kişi səhabələr bərabər vəzifələri üzərilərinə götürüblər.

Xurafatçılığın qadına baxışının kökündə (bu sadəcə müsəlman dünyasındakı xurafatçılara xas deyil) qadını dini və əqli cəhətdən yarımçıq hesab edən anlayış durur. Ona görə də düşünürlər ki, qadın idarə edilməli və istiqamətləndirilməlidir. Hətta çox vaxt qadını o qədər ağılsız hesab edirlər ki, sadəcə varlığını belə təhlükə ünsürü kimi görülür, nəzarət etmək üçün evdə bağlı saxlanılması ən yaxşı həll yolu zənn edilir.

Bəziləri üçün qadının evdə qalması kifayət etmir, evin pəncərələrinin bazara açılmaması, qadının küçəyə baxa biləcəyi dəliklərin belə örtülməsi



fikrindədirlər. Qadının vəzifəsinin ərinə və uşaqlarına xidmət etmək olduğunu düşünürlər. Xurafatçılıq qadını o qədər alçaldan çirkinlikdir ki, namazı pozan şeylər arasında heyvanlarla birlikdə qadın da sadalanır.

Qadına zülm sisteminə çevrilən bu yanlış baxışın dəyişməsi üçün İslam dünyası ortaq hərəkət etməli, İslam ruhuna zidd olan bütün xurafatlar təmizlənməli, dinin bu cür əxlaqsızlığı əmr etmədiyi müsəlmanlara hərtərəfli təhsil proqramları ilə öyrədilməlidir. Müxtəlif İslam mənbələrində bu xurafatlar qaldığı müddətcə müsəlman ölkələrində qadının layiq olduğu yerdə olması üçün edilən hər təşəbbüs yarımçıq qalacaq.

İslam dünyasında olduğu kimi, dünyada da qadına baxış tərzi dəyişilməlidir. Qadın kişinin nəzarətində olmaq üçün yaradılmayıb. Həyatını kişiyə görə istiqamətləndirməli deyil. Hər qadın hər kişi kimi həyatından, öz ağlı və vicdanı ilə verdiyi qərarlardan özü məsuldur. Qadının geyimi, təhsili, peşəsi, sosial həyatdakı yeri kişilər tərəfindən kişilərin ehtiyacına görə müəyyən edilməməlidir.

Əgər bir qadın dekolte geyinmək istəyərsə, istədiyi kimi geyinməli, nə geyəcəyinin standartları onun əvəzinə başqaları tərəfindən müəyyən edilməməlidir. Əgər qadın başını örtmək istəyirsə, baş örtüyünü istədiyi üslubda örtə bilər və baş örtüyü ilə həyatın hər sahəsində iştirak edə bilər. Əgər qadın işləmək istəyirsə, qarşısına yüzlərlə maneə çıxarılmamalı, siyasətdə olmaq istəyirsə, hüquqları məhdudlaşdırılmamalı, incəsənətlə məşğul olmaq istəyirsə, yolu açılmalıdır. Qısası, qadınlar dünyanın hər yerində çox azad, rahat olmalıdır ki, insanlar həsrətində olduğu nemətlərə qovuşa bilsinlər.

Unutmayaq ki, dünyanın ucqar yerində belə olsa, bir qadın təzyiqə məruz qalırsa, bu, bütün dünyanın vicdanını hərəkətə keçirməlidir. Qadınların asılı olduğu, həyatın müxtəlif sahələrində yer tutmadığı dünyada sülhdən, əmin-amanlıqdan bəhs etmək mümkün deyil. Bu səbəbdən, bütün insanların qadınların dünyanın zinəti olduğunu anlaması vaxtı artıq çatıb. Gəlin birlikdə, əvvəlcə, qadınlara edilən zülmü aradan qaldıraq və daha gözəl, daha işıqlı, daha sevincli dünya üçün bu zinətin dəyərini bilək. Dünya qadınlar azad olduqda gözəl olacaq...

# Şərq və Qərb cəmiyyətlərində cəhalət və İslamofobiya





Təhsil və mədəniyyətin yoxluğundan doğan cəhalət bu gün dünyanın bütün cəmiyyətlərini öz cənginə almışdır. Bir tərəfdə, demək olar ki, əhalisi oxuma-yazma bilməyən bəzi İslam ölkələri, digər tərəfdə isə müasir və mədəni görünüşünə baxmayaraq, bir çox mövzuda tamamilə yanlış məlumatlara sahib olan və əhəmiyyətli gerçəklərdən xəbərsiz olan Qərb cəmiyyəti durur.

Cəhalət az inkişaf etmiş üçüncü dünya ölkələrinə, yəni Yaxın Şərq və İslam ölkələrinə aid edilsə də, onun Qərb cəmiyyətlərində də mövcud olduğu danılmaz həqiqətdir.

Çünki məlumatlı olmaq, yalnız oxuma-yazma bilmək, müəyyən təhsil ocaqlarının məzunu olmaq müəyyən sahələrdə tam ixtisaslaşmaq demək deyil. İnsanın yaradılış məqsədini bilməməsi, ətrafında baş verən hadisələri və bu hadisələrin ardındakı hikmətləri qavramasına yardım edən məlumatlardan məhrum olması, hələ üstəlik, ən vacib mövzularda məlumatının səhv olması cəhalətin ən yüksək dərəcəsidir.

Bu gün Qərb cəmiyyətlərində möhkəmlənmiş inanca çevrilən darvinizm cəhalət anlayışının bariz nümunələrindən biridir.

Darvinizm və ona əsaslanan materializm bir əsrdən çoxdur ki, Qərb cəmiyyətlərini Allah`ın varlığı və yaradılış kimi həyati gerçəklərdən uzaq tutur.



Darvinizm və materializmi elmi gerçək hesab etmək, kor-koranə bu uydurmalara inanmaq cəhalətdən başqa bir şey deyil. Çünki canlıların yer üzündə ortaya çıxdıqları andan günümüzə qədər dəyişmədiklərini və təkamül adlanan xəyali prosesin heç bir zaman olmadığını sübut edən yüz milyonlarla qalıq mövcuddur.

Bu gün mədəniyyətin beşiyi adlandırılan Qərb dünyasının bütün təhsil sistemi, elm anlayışı, dünyagörüşü darvinizm saxtakarlığına, başqa sözlə desək, qatı cəhalətə əsaslanır.

## Qərb cəmiyyətlərinə istiqamət verən böyük cəhalət: islamofobiya

Qərb cəmiyyətlərində İslamla əlaqədar qatı cəhalət mövcuddur. Şifahi yayılmış xurafatlarla və əsassız ön mühakimələrlə beyinləri dolmuş bəzi qərb kütlələri, əslində, sülh, sevgi, birlik və qardaşlıq dini olan İslamı terror və vəhşiliyin qaynağı, qantökən qorxulu din hesab edirlər. Bu böyük cəhalət hər kəs üzərində, adi vətəndaşdan dövlətin yuxarı təbəqələrindəki idarəçilərə qədər hakimdir. Məhz İslam ölkələri və müsəlmanlar əleyhinə verilən qərarların və həyata keçirilən dövlət siyasətinin əsasında bu cəhalət və səhv anlayış durur. İnsanların əksəriyyəti bu qərarları və siyasəti dəstəkləyirlər.

Hər gün müəyyən qəzet və jurnallarda İslama qarşı nəşr olunan məqalələr, təlqin və təbliğatlar nəticəsində Qərb əhalisinin bir qismində İslam haqqında qəti ön mühakimə yaranmışdır. Ancaq bu insanların ən böyük səhvi ondan ibarətdir ki, onlar İslamı doğru tanıdan yeganə mənbəni - Quranı oxumurlar.

## Cəhalət üzərində qurulan fanatik din anlayışı islamofobiyanın qaynağıdır

Şübhəsiz ki, Qurana əsaslanan gerçək İslam islamofobiyanın qaynağı deyil. Ancaq bir çox İslam ölkəsində İslam adı altında Qurana uyğun olmayan həyat modeli mövcuddur. Bu ölkələrdə qatı cəhalət və xurafatlara əsaslanan yanlış din anlayışı hökm sürür. Bunun nəticəsində isə hər cür şiddət və vəhşiliyin mövcud olduğu, elm, sənət və mədəniyyətin olmadığı, qadınları isə ikinci təbəqə kimi görən bir cəmiyyət ortaya çıxır. Atadan oğula keçən və dövlətin rəsmi şəkildə

Düşünən İnsan, Fevral 2014



təlqin etdiyi bu din anlayışı müsəlman cəmiyyətlərinin əksəriyyəti tərəfindən İslam kimi mənimsənir. Halbuki, bütün müsəlmanlar dinin əslini araşdırmalı, gerçək mənbə olan Quranı oxuyaraq öyrənməlidirlər. Bu, bütün müsəlmanların cəhalətdən dərhal xilas olmalarına səbəb olacaq.

İslam adı altında Qurana zidd olan din anlayışını görən Qərb cəmiyyəti buna qarşı özünümüdafiə mexanizmini işə salır ki, bu da islamofobiya adlanır.

Göründüyü kimi, dünya səviyyəsində on illərlə davam edən şiddət, ölüm, əzab, qan və göz yaşından başqa bir şey olmayan islamofobiyanın ortaya çıxmasında hər iki tərəf də eyni dərəcədə günahkardır. İstər müsəlmanlar, istərsə də Qərb cəmiyyəti İslamı Qurandan öyrənmədikcə qorxu, iztirab və narahatlıqlardan xilas ola bilməyəcəklər.

## Bəzi İslam ölkələrində cəhalətin ölçüləri

Mövzu ilə əlaqədar statistikalar bəzi İslam ölkələrindəki cəhalətin dərəcəsinin müəyyən edilməsi baxımından çox əhəmiyyətlidir:

***Oxuma-yazma bilməyənlərin nisbəti:***

Əfqanıstan >> Qadın: 97.6 % Kişi: 77.3 %
Yəmən >> Qadın: 91.8 % Kişi: 57.4 %
Pakistan >> Qadın: 89 % Kişi: 68.3 %
Banqladeş >> Qadın: 86.6 % Kişi: 62.5 %
Mərakeş >> Qadın: 79.7 % Kişi: 52.9 %

Digər İslam ölkələrinin də daxil olduğu bu siyahı daha uzundur. Burada adi təhsil və mədəniyyətin yoxluğundan söz getmir. Oxuma-yazma belə bilməmək cəhalətin nə dərəcədə böyük olduğunun göstəricisidir. Bu cədvəldə qadınların nisbəti xüsusilə diqqət çəkir. Bu isə İslam cəmiyyətlərinin ümumi mədəniyyət səviyyəsini müəyyənləşdirməyə imkan verir. Məsələn, bütün İslam aləmində bir ildə çap edilən kitabların sayı Yunanıstanda nəşr edilən kitabların sayının yalnız yarısı qədərdir.

## Türkiyənin qabaqcıl mövqeyi

İslam aləmini əhatə edən bu cədvəldə yeganə istisna Türkiyədir. Türkiyə Atatürk inqilabı və

demokratiya işığında fanatizmdən uzaq yaşayan, Quran əxlaqını ən gözəl şəkildə cəmiyyətin həyatına və mədəni dəyərlərinə daxil edən və sürətlə inkişaf edən bir ölkədir.

İnkişaf etmiş ticarət, iqtisadiyyat, aqrar münasibətlər, ölkənin isə modern olması onu digər İslam ölkələrindən üstün edən göstəricilərdir və Türkiyə bu göstəricilər nəticəsində dünyanın nəhəng ölkələri sırasına daxil edilmişdir. Türkiyədə nəşr olunan kitabların sayı bütün ərəb ölkələrində çıxan kitabların sayından təxminən beş dəfə çoxdur. Bu da mədəni üstünlüyün bariz nümunəsidir.

Bu göstəricilər Türkiyənin İslam dünyasındakı qabaqcıl rolunu bir daha təsdiqləyir. Heç bir İslam ölkəsi bu rolu boynuna götürə bilməz. Bu, bir həqiqətdir. Zənginlik və yeraltı sərvətlər də bu vəzifə üçün kifayət deyil.

Əlbəttə ki, oxuma-yazma belə bilməyən milyona yaxın kütləyə doğruları ancaq şifahi şəkildə izah etmək mümkündür. Bunun nəticəsinə isə nəzarət etmək, demək olar ki, mümkün deyil. Bu səbəbdən də, bütün müsəlman bacı-qardaşlarımız yaxşı təhsil almalı və Quranı yaxşı bilməlidirlər.

İslamofobiya istiqamətində radikalizmlə, terrorizmlə mübarizəyə xərclənən pullar təhsilə sərf edilsə, axan qan dayanacaq, bütün dünya mədəni cəmiyyətlərdən ibarət olacaq. Məsələn, son 10 ildə Pakistanda daxili və xarici terrorla mübarizəyə xərclənən 60 milyard dollar bütün dünyadan cəhalət qaranlığını aradan qaldırmağa kifayət edər.

Qərb ölkələri özünə təhdid kimi gördüyü İslamı və İslam aləmini yox etməyə çalışmaqdansa, insanların gerçək İslamı öyrənmələri üçün bütün xalqları təhsil səfərbərliyinə alsa, həm özünə, həm müsəlmanlara, həm də bütün insanlara faydalı olar, inşaAllah. Beləliklə, Quranda təsvir edilən İslamın sevgi, sülh, dinclik, rifah, azadlıq və xoşbəxtlik dini olduğu açıq-aşkar ortaya çıxacaq. Oxuma-yazma bilən müsəlmanlar radikalizmdən, xurafatlardan sıyrılaraq dinlərini Qurandan öyrənəcək, Qurana uyğun davranmağa başlayacaqlar. Qərblilər də doğru İslamı Qurandan tanıyacaqlar. Nəticədə, islamofobiya sürətlə yer üzündən silinəcək və dünyanı Qızıl Əsrə aparan xoşbəxt və gözəl bir zəmin meydana gələcək.



Düşünən İnsan, Fevral 2014



# Yarpaqların rəngi

İlıq iqlimlərdə, payız fəslində yarpaqların rəngi dəyişməyə başlayır. Bütün bitkilərin tərkibində bitkiyə rəng verən müxtəlif piqmentlər olur. Yaşıl rəngi verən piqment xlorofil; sarı, qəhvəyi, qırmızı, narıncı rəngin piqmentləri isə karoten və antosiyanindir. Bütün yarpaqlarda bu üç piqmentin olmasına baxmayaraq, yarpaqların əksəriyyətinin yaşıl olmasının səbəbi yaşıl rəngi verən xlorofilin gücünün digər piqmentlərə nisbətən daha çox olmasındadır.

Payızda bitkilər yarpaqlarını tökməzdən əvvəl yarpaqlarındakı faydalı vəsaitləri geri alırlar. Bu əməliyyat əsnasında da xlorofil pozulmağa başlayır. Bu mərhələdə xlorofil güclü olduğu üçün rəngləri ortaya çıxa bilməyən sarı və narıncı piqmentlərin təsiri ortaya çıxmağa başlayır.

Yarpaqların ömürləri bitdikdə antosiyanin piqmenti çoxalır və nəticədə yarpaqlar yaşıldan qırmızıya, bənövşəyiyə və ən sonunda qəhvəyi rəngə çevrilir.

İstiliyin azalması ilə yanaşı bitki həddindən artıq parlaqlığa məruz qalır və antosiyanin səviyyəsi artmağa başlayır. Buna görə də payız aylarında ağaclarda yaşıl, sarı, qırmızı tonlarda yarpaqlar birlikdə görülür.

Bu rəng dəyişməsinin ardından ağaclardakı yarpaqların hamısı qısa zamanda tökülür və ağac yaza qədər bir növ ölmüş olur.

# Bir ayə, bir açıqlama

*Biz hər kəsi yalnız qüvvəsi çatdığı qədər yükləyirik. Dərgahımızda haqqı deyən bir kitab vardır. Onlara zülm olunmaz. (Muminun surəsi, 62)*

Allah sonsuz mərhəməti, şəfqəti və ədaləti ilə yaratdığı hər hadisədə həm asanlıq yaradır, həm də hər insanı gücünə görə imtahan edir. Allah`ın dünya həyatındakı imtahanı hər insana görə fərqli yaradılır. Allah`ın insanlara əmr etdiyi ibadətlərin, onları imtahan etmək üçün yaratdığı çətinliklərin, insanların üzərinə qoyduğu öhdəliklərin hamısı hər kəsin gücü çatdığı qədərdir, səbir edəcəyi qədər ağırdır. Çünki bütün insanları yoxdan yaradan Rəbbimiz hər insanın nəyə nə qədər tab gətirəcəyini yaxşı bilir. Allah sonsuz ədalət sahibidir və qullarına qarşı mülayimdir. Allah heç kəsi gücü çatdığından artıq yükləməz və heç kimsə haqsızlığa məruz edilməz. Bu, Allah`ın vədidir, Rəhman və Rəhim isminin təcəllisidir. "Muminun" surəsindəki ayədə də bu həqiqətə diqqət çəkilir.

İnsanın dünya həyatında qarşılaşdığı hər cür imtahan, xəstəliklər, qəzalar, maddi və mənəvi sıxıntılar və digərləri onun gücü çatdığı həddə olan sınaqlardır və Allah`ın o insanın qədərində yazdığı hadisələrdir. Bu təqdirdə insan hadisələrdəki xeyir və hikməti görmək və hər şeyi xeyirə yozmaq üçün əvvəla dünya həyatının imtahan yeri olduğunu unutmamalıdır.

Bəzən insanlar baş verən hadisələrdən artıq çıxış yolu olmadığını, hər şeyin bitdiyini, bunun keçilməz çətinlik olduğunu düşünürlər. Hətta bəzi insanlar üsyankar davranırlar, ancaq bunlar sadəcə şeytanın verdiyi boş şübhələrdir. Səmimi mömin bu həqiqəti bilməlidir ki, qarşılaşdığı hər imtahan onun gücü səviyyəsindədir və bu imtahanda gözəl əxlaqlı davrana və səbir edə bilər.

Möminlər Allah`ın onlara gücləri çatdığından artıq çətinlik verməyəcəyini bildiklərinə görə rahatdırlar. Əgər başlarına bir çətinlik gəlsə, yenə bilirlər ki, bu, onların güclərinin çatdığı, səbir edəcəkləri səviyyədədir



# GÖRÜNMƏYƏN

Bu gün təbiətdəki materialların və ya canlıların quruluşunu tədqiq edib elmi işlərində bunlardan nümunə götürən bir çox elm adamı var. Təbiətdəki materialların möhkəmliyi, yüngüllüyü, elastikliyi və kimyəvi xüsusiyyətləri elm adamlarının bu materialların quruluşunu təqlid etməsinə səbəb olur. Gündəlik həyatda qarşılaşdığımız bir çox material və canlıların müxtəlif xüsusiyyətləri elm adamlarının diqqətini çəkir və bu məmulatları təqlid etməyə çalışırlar.



## Hərəkət edərkən ağrı hiss etməyimizin qarşısını alan yağlama sistemi

Daima hərəkətdə olan bəzi sümüklərimizin hərəkətsiz bölgələrdəki sümüklərlə müqayisədə fərqli dəstək sisteminə ehtiyacı var. Buna misal olaraq oynaqlarımızı göstərə bilərik. Onurğa sütunumuzu təşkil edən fəqərələr, ayaqlarımızdakı və əllərimizdəki oynaqlar biz hərəkət etdikdə bir-birlərinin üstündə fırlanırlar. Daima hərəkət etdiklərinə görə dəstək sistemlərə ehtiyac var. Məsələn, bir mexaniki alət işləyərkən hərəkətli hissələrin bir-birlərinə təmas nöqtələrində sürtünmə və aşınma baş verir. Bunun qarşısını almaq üçün adi qapı cəftəsindən üstün texnologiyaya malik avtomobil motoruna qədər hər hərəkətli mexaniki sistemdə yağlamaya ehtiyac var. Lakin yağlama aşınmanın qarşısını tamamilə almır, sadəcə bu prosesi gecikdirir.





İnsanların və heyvanların oynaq yerləri ömür boyu hərəkət etdikləri halda,

# QORUYUCULAR

baxıma və yağlanmaya ehtiyac olmur. Oynaqların sürtünən səthi deşikli nazik qığırdaq təbəqəsi ilə örtülüdür və altında sıx maye yerləşir. Sümük oynağın bir yerinə təzyiq göstərdikdə bu maye deşiklərdən çıxıb oynağın səthinin yağ kimi sürüşkən olmasını təmin edir. Göründüyü kimi, insanın hərəkət etməsi üçün hər cəhətdən mükəmməl dizayn mövcuddur.

## Çox təsirli dezinfeksiya edici: göz yaşı

Bir çox insanın ancaq ağladıqda axan duzlu su hesab etdiyi göz yaşı, əslində, çox xüsusi mayedir. Başlıca funksiyası gözü mikroblardan qorumaqdır. Tərkibindəki lizozim fermenti bir çox bakteriya növünü parçalayır və mikrobları öldürür. Lizozim sayəsində göz infeksiyalardan qorunur. Bu maddə binaları mikroblardan təmizləmək üçün istifadə edilən güclü dezinfeksiya edici maddələrdən daha təsirlidir. Bəs bu qədər güclü dezinfeksiya edici maddə necə olur ki, göz kimi həssas orqana heç zərər vermir və əksinə, onu mükəmməl qoruyur? Bu, Allah`ın üstün yaratma sənətidir. Göz yaşı gözün kimyəvi quruluşuna ən uyğun şəkildə yaradılıb. Yaradılışdakı möhtəşəm uyğunluq eyni şəkildə göz və göz yaşına da aiddir.

Gözdə yağlama sistemi də var. Bu sistem gündə təqribən 100.000 dəfə dörd müxtəlif istiqamətə çevrilən gözün aşınmasının qarşısını alır.

## Qoruyucu təbəqə

Səthləri örtmək kirdən və aşınmadan qorumaq baxımından çox vacibdir. Xüsusilə də yumşaq taxtaların içinə girərək onları çürüdən su sızmalarına qarşı bu tədbir lazımdır. İnsanların gündəlik həyatda istifadə etdiyi bir çox qoruyucu material, əslində, təbiətdə canlılar tərəfindən istifadə olunur. Taxta örtük bunlardan biridir. Həşəratların bədənini örtən xitin təbəqəsi taxta səthlərin örtülməsinə nümunə olmuş materiallardan biridir. Xitin çox yüngül və nazik, skelet funksiyası yerinə yetirəcək qədər möhkəm və elastikdir. Üzərindəki xüsusi örtük maddəsinə görə su keçirmir. Bədənin içindəki mayeləri də xaricə buraxmır.

## Bataqlığın içində mükəmməl təmizlik

Lotus bitkisi (ağ su zanbağı) palçıqlı, kirli mühitdə yetişir, ancaq yarpaqları həmişə təmiz olur. Çünki bitki üzərinə ən kiçik toz zərrəciyi düşdükdə dərhal yarpaqlarını silkələyir və toz zərrəciklərini müəyyən hissələrə itələyir. Yarpağa düşən yağış damcıları da bu hissələrə istiqamətləndirilir və beləliklə, buradakı tozları süpürərək yuyub aparır.

Lotus bitkisinin bu xüsusiyyəti yeni bina səthi dizaynı üçün tədqiqatçılara istiqamət vermişdir. Tədqiqatçılar lotusun yarpağı kimi yağış suyu vasitəsilə üstündəki kiri təmizləyən bina səthləri dizayn etməyə başlayırlar. Tədqiqatlar nəticəsində "ISPO" adlı bir alman şirkəti Lotusan adlanan örtük maddəsi istehsal etmişdir. Asiya və Avropada bazara çıxarılan bu məhsula yuyucu vasitəyə ehtiyac olmadan 5 il öz-özünü təmizləyəcəyi zəmanəti verilmişdir. Silikon əsaslı xarici səth boyası olan Lotusanda Lotus bitkisinin və bu bitkinin təmizləmə sistemi eynilə təqlid edilmişdir. Bu sistemə əsasən, səthdə 5-10 mikrometr (millimetrin mində biri) qalınlığında və bir-birindən 10-15 mikrometr məsafədə çox kiçik qabarıqlar yerləşir. Beləcə, 0.1 mikrometr genişlikdə simlərdən ibarət kələ-kötür səth meydana gəlir. Kənardan baxdıqda düz görünən, əslində isə mum ilə örtülü olan kələ-kötür səth forması su damcılarının səthlə tam təmas etməsinin qarşısını alır və su damcılarının aşağıya axmasını təmin edir.

Təbiətdəki bir çox canlı öz səthini qoruyan müxtəlif xüsusiyyətlərə malikdir. Şübhəsiz ki, nə Lotus bitkisinin səth quruluşu, nə həşəratlardakı xitin təbəqəsi, nə göz yaşı, nə də oynaqlarımızdakı aşınmanın qarşısını alaraq rahat hərəkət etməyimizi təmin edən maye öz-özünə əmələ gəlib. Onları bütün xüsusiyyətləri ilə birlikdə qüsursuz dizaynla yaradan sonsuz elm sahibi olan Allah`dır.

***O, (hər şeyi) yaradan, yoxdan var edən, surət verən Allah`dır. Ən gözəl adlar ancaq Ona məxsusdur. Göylərdə və yerdə nə varsa (hamısı) Onu təqdis edib şəninə tariflər deyər. O, yenilməz qüvvət sahibi, hikmət sahibidir! (Həşr surəsi, 24)***

# MÜSƏLMANIN DİQQƏTİNİN VƏ ŞÜURUNUN AÇIQ OLMASINA KÖMƏK EDƏN SƏBƏBLƏR



Müsəlman diqqətinin və şüurunun hər an, hər saniyə açıq olması üçün nələrə fikir verməlidir?

İman gətirən insan Allah`ın Quranla insanlara bildirdiyi həqiqətlərə səmimi qəlbdən inanıb, bütün həyatını bu həqiqətlər əsasında yaşamağa qərar verib.

Allah`dan başqa qüvvə olmadığına, qədərin, məhşər gününün, cənnətin və cəhənnəmin haqq olduğuna, dünya həyatının imtahan yeri olduğuna və hər insanın Quran əxlaqı ilə yaşamaqla məsul olduğuna qəti iman gətirib. Bu imanı nəticəsində bir insan bütün həyatı boyu artıq Quranla bildirilən həqiqətlər əsasında yaşayır. Hər anını bu məlumatlar işığında, Allah`ın rizasına uyğun keçirir.

Ancaq yenə də insan: "Necə də olsa, mən bu həqiqətləri bilirəm, bütün bunlara səmimi qəlbdən inanıram", - deyərək bu mövzular üzərində dərin düşünməkdən çəkinməməlidir. İnsanın səhər yuxudan oyandığı andan etibarən gün ərzində hər saat, hər dəqiqə bütün iman həqiqətləri üzərində təkrar-təkrar düşünməsi ona üstün əxlaq qazandırar.

## Allah`a təvəkkül və qədərə təslim olmaq

Tam yəqinliklə iman gətirməyin ən böyük şərti olan təslimiyyət və ya təvəkkül uca Allah`ın və axirətin varlığına ağlı, qəlbi və vicdanı ilə qəti iman gətirən hər insan üçün çox asan qazanılacaq xüsusiyyətdir. Çünki uca Allah insanın fitrətini Zatına sevgi, inanc, güvən və bağlılıq hissinə meyilli yaratmışdır. Odur ki, əslində, uca Allah`a təslim olmamaq insanın fitrətinə ziddir və çətindir. Hər cür nöqsandan uzaq olan Rəbbimiz rəhmət və şəfa kimi nazil etdiyi Quranda bu fitrət üzərində yaratdığı qullarına təslimiyyət qazandıran



və möminlərin təslimiyyətini artıran əxlaqi xüsusiyyətləri bildirərək qullarının üzərindən çətinlikləri götürmüş və bu yolla onlar üçün dünya həyatında imtahanı asanlaşdırmışdır.

Dünyada Allah`dan müstəqil heç bir canlı və cansız məxluq yoxdur. Hər şey və hər kəs uca Rəbbimizə boyun əyib. Hər biri hər an Allah`ın əmrinə tabe olur və Rəbbimizin buyruğunu yerinə yetirir. Dünyanın ən böyük problemləri, çətinlikləri və sıxıntıları ilə üzləşən insan belə bu qəti həqiqəti əsla unutmamalıdır.

Allah Quranda bir çox insanın bəzən qəflətə düşərək unutduğu bu mühüm həqiqəti qullarına belə xatırladır:

***... Elə isə namaz qılın, zəkat verin və Allah`a möhkəm sarılın. O, sizin himayədarınızdır. O, nə gözəl himayədar, nə gözəl yardımçıdır! (Həcc surəsi, 78)***

## Allah`la sıx ünsiyyətdə olmaq

Hər işdə Rəbbimizə üz tutmağın və onunla sıx ünsiyyət qurmağın yolu bir işə bismillah ilə başlamaqdır. Həmişə Allah`ın adını zikir edərək bir işə başlamaq qəlbdə təsir oyandırmaq baxımından insana güc verir, həm də insanın Allah`a yaxınlığını artırır. Çünki bir işə Allah`ın adı ilə başlayan insan hər şeyin Allah`ın nəzarəti altında baş verəcəyini, Allah istədiyi təqdirdə gördüyü işdə müvəffəq olacağını bilir. Şübhəsiz ki, bu, qul ilə Allah arasında çox dərin yaxınlıq yaranmasına səbəb olur. Belə bir insan acizliyini anlayıb, Allah`ın izni olmadan heç bir işi görməyə gücü çatmayacağını qavrayıb və özünü tamamilə uca Allah`a təslim edib. Möminlərin bu vəziyyəti Quranda belə xəbər verilir:

***De: "Allah`ın bizim üçün yazdığından başqa bizim başımıza heç nə gəlməz. O, bizim himayədarımızdır. Qoy, möminlər Allah`a təvəkkül etsinlər!" (Tövbə surəsi, 51)***

***... Rəbbini çox yad et və səhər-axşam (Onun şəninə) təriflər de!" (Ali-İmran surəsi, 41)***

Müsəlman Allah`a sevgisini, Allah qorxusunu, təvəkkülünü,

onu Allah`ın yaratdığını və Allah`ın hakimiyyəti altında hərəkət edən aciz, möhtac varlıq olduğunu hər dəqiqə düşünməlidir. Dünya həyatının çox qısa olduğunu, sürətlə keçdiyini, insanın sürətlə yaşlandığını, ölümün həm gənclərə, həm də yaşlılara çox yaxın olduğunu, hər hadisənin insanın sınanması üçün yaradıldığını, Allah`ın rizasını və əbədiyyən Rəbbimizin sevgisini qazanmağı hədəflədiyini tez-tez özünə xatırlatmalıdır.

## Müsəlmanları sevməyin labüdlüyü

İman gətirənlər Allah`a güclü sevgiləri və səmimi bağlılıqlarına görə Allah`ın yaratdığı varlıqları da çox sevir, bu varlıqlarda Rəbbimizin təcəllilərini görürlər. Quranın ***“Sizin himayədarınız yalnız Allah, Onun Elçisi və iman gətirənlərdir. Onlar (Allah`a) boyun əyərək namaz qılır və zəkat verirlər” (Maidə surəsi, 55)*** ayəsi ilə bildirildiyi kimi, iman gətirənlər uca Allah`ın insanlara doğru yolu göstərməsi üçün göndərdiyi peyğəmbərlərə və əməlisaleh möminlərə də dərin sevgi bəsləyirlər.

Müsəlman müsəlmanları nə üçün sevdiyini daima düşünməlidir. Allah`ın ***“Şübhəsiz ki, Allah Öz yolunda möhkəm divar kimi səf çəkib döyüşənləri sevər!” (Saff surəsi, 4)*** ayəsi ilə xatırlatdığı kimi, bütün müsəlmanların sanki bir bədənin üzvləri kimi bir-birlərinin ən yaxın dostları və qoruyucuları olduğunu heç unutmaması bütün müsəlmanlara qarşı məsuliyyətini artırar. Ona görə də dünyanın harasında olursa olsun, əziyyət çəkən, zülm altında yaşayan müsəlmanların əziyyətinə son qoymaq, zülmü aradan qaldırmaq üçün ciddi ideoloji mübarizə aparar.

## Hər an hər şey üçün dua etməyi unutmamaq

Allah istəsə, insanların qəflətdə olub qeyri-mümkün hesab etdikləri işləri həmin anda dərhal reallaşdırar. Allah keçmişdə elçilərinə, əməlisaleh möminlərə kömək etdiyi kimi, qeyri-mümkün hesab edilən işləri reallaşdırdığı kimi, bütün insanların da dualarına qarşılıq verər.

Hər insanın həyatında Allah`dan çox istədiyi, ancaq ilk baxışda



başvermesi qeyri-mümkün kimi görünən hallar olur. Bu çətin şərtlər insanı əsla yanıltmamalıdır. Duanın qədərin açarı olduğunu və dua etdikdə Allah`ın yazdığı qədərin hərəkət etdiyini əsla unutmamaq və Allah`dan qəti inanaraq istəmək çox vacibdir. Rəbbimiz hz. Musaya (ə.s) yol açdığı kimi, Peyğəmbərimizə (s.ə.v), hz. Yunisə (ə.s), hz. İbrahimə (ə.s), hz. Zəkəriyyaya (ə.s) yardım etdiyi kimi, bütün səmimi müsəlmanların da dualarına mütləq rəhməti ilə qarşılıq verəcək.

Ancaq əlbəttə, bir şeyin reallaşmasını çox istəyən mömin eynilə hz. Yunis (ə.s) kimi Allah`ı çox zikr etməli, Peyğəmbərimiz hz. Muhəmməd (s.ə.v) kimi, hz. Musa (ə.s) kimi ən çətin şərtlərdə belə ümidsizliyə düşmədən: "Əlbəttə, Allah bizimlə birlikdədir", - deməli və heç bir şübhəyə düşmədən Allah`ın gücünə dərindən iman gətirib güvənməlidir. Məhz bu zaman Allah`ın duadakı sirri aşkar olar və Allah`ın izni ilə qədər hərəkət etməyə başlayar. Böyük İslam alimi İmam Rəbbani bir sözündə möminlərə bu mühüm, qəti həqiqəti belə xatırladır:

"Bir şeyi istəmək ona nail olmaq deməkdir. Çünki Allahu-Təala qəbul etməyəcəyi duanı quluna etdirməz". (İmam Rəbbani)

Odur ki, mömin

*-Hər işdə Allah`a üz tutaraq,*

*-Ancaq Allah`a dua edərək və ancaq Ondan kömək istəyərək,*

*-Allah`ın hər duaya qarşılıq verdiyini bilərək,*

*-Allah`ın ona şah damarından yaxın olduğunu və hər düşüncəsinə şahid olduğunu unutmadan,*

*-Allah`ı ən gözəl isimləri ilə təsbih edərək və bu isimlərin mənaları üzərində dərin düşünərək,*

*-Duanın bir forması olmadığını, Allah`ın rizasını qazanmaq üçün edilən hər hərəkətin bir dua olduğunu unutmayaraq,*

*- Dua etmək üçün xüsusi məkan və yerə ehtiyac olmadığını, həmişə hər yerdə dua etməyin mümkün olduğunu bilərək,*


... Rəbbini çox yad et və səhər-
axşam (Onun şəninə) təriflər de!
(Ali-İmran surəsi, 41)





- *Allah`a ən hörmətli üslubla,*
- *Sadəcə sıxıntı və ehtiyac içində olduqda deyil, bolluq və nemət içində olarkən də dua edərək,*
- *Dualarından sonra verilən nemətlərə nankorluq etməyərək,*
- *Səmimi şəkildə,*
- *Allah`a yalvara-yalvara,*
- *Göstəriş üçün dua etməkdən çəkinərək,*
- *Qorxu və ümidlə,*
- *Özü üçün dua etdiyi qədər, hətta bundan da artıq peyğəmbərlər və digər möminlər üçün də,*
- *Möminlərin sağlamlığı, təhlükəsizliyi, rahatlığı və güclü olması üçün,*
- *Allah`a yaxınlaşmaq, müvəffəq olmaq, din əxlaqı ilə yaşamaq və gözəl əxlaqda qətiyyətli olmaq üçün,*
- *Dünyada və axirətdə Allah`ın ən gözəl aqibəti verməsi, nemətlərini artırması üçün,*
- *Heç kimin möminlərə zərər verməməsi üçün,*
- *Quranda keçən peyğəmbər dualarını özünə nümunə götürərək dua edər.*

## Hər zaman şükür etmək

İmanın ən əsas göstəricilərindən biri olan şükür hər cür nemətin yeganə sahibinin Allah olduğunu və hər şeyin ancaq Ondan gəldiyini dərk edərək bunu qəlbi və dili ilə ifadə etməkdir. Habelə, şükür Allah`la dərin ünsiyyət qurmağın, ancaq Ona qulluq etməyin ən səmimi yollarından biridir.

Möminlər yaradılış dəlillərini təhlil edərək, Yerin atmosferlə kosmosdan gələn təhlükələrdən qorunduğunu, Yerin altında qaynayan maqma təbəqəsindən nazik yer qabığı ilə qorunduğunu, içməli suyun yaradıldığını, torpağın verdiyi məhsulları, nəqliyyat vasitələrini, gecə ilə gündüzün yaradılmasını, həyatını, sağlamlığını, acizliyini, ağlını, şüurunu, beş duyğu orqanını, nəfəs aldığı havanı və bunlara bənzər nemətləri onlara hər an uca Allah`ın fasiləsiz bəxş etdiyini düşünər və bütün bunlar üçün Rəbbimizə şükür edərək ancaq Allah`a üz tutarlar. Uca



Allah bir ayədə şükür etməyin Ona yaxınlaşmaq vasitəsi olduğunu belə xəbər verir:

***"... Şübhəsiz ki, Allah`dan başqa ibadət etdikləriniz sizə ruzi verməyə qadir deyillər. Elə isə ruzini Allah`dan diləyin, Ona ibadət edin və Ona şükür edin. Siz ancaq Ona qaytarılacaqsınız". (Ənkəbut surəsi, 17)***

Mömin bütün həyatı boyu bu mövzuları yadında saxlamalıdır:

*-Daima vicdanının səsini dinləyərək hərəkət etməli,*
*-Özü və yaxınları əleyhinə də olsa, daima ədalətli olmalı,*
*-Tolerant olmalı və bağışlamalı,*
*- Möminlərə şəfqətli və mərhəmətli olmalı,*
*-Təkəbbürlü olmaqdan çəkinməli,*
*-Salam verdikdə ən gözəl şəkildə salamı almalı,*
*-Qəzəbini cilovlamalı,*
*-Çox yaxşı bildiyi mövzu belə olsa, mübahisədən çəkinməli,*
*-İnsanlara göstəriş etməkdən çəkinməli,*
*-Üstünlük ölçüsü təqva olmalı,*
*-Nəfsin daima pisliyi əmr etdiyini unutmamalı,*
*-Hər an xeyir iş görməli,*
*-Allah`dan gücü çatdığı qədər qorxmalı,*
*-Allah`ın rizasını və razılığını hər şeydən üstün tutmalı,*
*-Ancaq Allah`dan qorxub çəkinməli,*
*-Yaxşılığı əmr edib pislikdən çəkindirməli,*
*-Bir kəsin başqa birinin günahını yüklənməyəcəyini unutmamalı,*
*-Allah`ın təkəbbürlülük edib lovğalananları sevmədiyini bilməli,*
*-Namazlara diqqətlə yanaşmalı,*
*-Hər işdə Allah`a üz tutmalı,*
*-Sahibimizin Allah olduğunu və bütün bunları Onu razı etmək üçün etdiyimizi unutmamalı...*

# QARIŞQALARDAN ZƏHƏR HAZIRLAYAN
# QIZIL QURBAĞA





Bütün canlılarda Allah`ın üstün sənəti hakimdir. Allah Quranda insanları ətraflarındakı yaradılış dəlilləri üzərində düşünməyə və tədqiq etməyə çağırır. Elmi tədqiqatlar Allah`ın Quranda bildirdiyi bu əmri yerinə yetirməyimiz üçün mühüm məlumat mənbəyidir. Bu tədqiqatların köməyi ilə Allah`ın üstün ağlını, elmini və sonsuz gücünü daha yaxşı qavrayırıq.

***İnsanların, heyvanların və davarların da bu cür müxtəlif rəngləri vardır. Allah`dan Öz bəndələri içərisində ancaq alimlər qorxar. Həqiqətən, Allah yenilməz qüvvət sahibidir, bağışlayandır! (Fatir surəsi, 28)***

Bu günlərdə mərkəzi və cənubi Amerikada yaşayan qızıl qurbağalar üzərində aparılan tədqiqat buna misaldır. Qızıl qurbağalar gözəl görünüşlü olsalar da, ifraz etdikləri zəhərə görə çox təhlükəli canlılardır. Bu zəhərin mənbəyi isə dərisindən ifraz etdiyi alkaloid adlı kimyəvi maddədir. Bir qızıl qurbağanın ifraz etdiyi zəhər 10 nəfəri öldürəcək qədər güclüdür. Tədqiqatçılar qızıl qurbağanın bu zəhəri xüsusi qida seçimi sayəsində əldə etdiyini kəşf ediblər. Qızıl qurbağaların tərkibində bol miqdarda qarışqa olan qidalar yeməsi nəticəsində alkoloid ifraz etdiklərini üzə çıxarıblar. Kolumbiya Universitetindən Valeri Klark (Valerie Clarck) və Nyu-York Təbiət Tarixi Muzeyinin əməkdaşları Madaqaskarda yaşayan qurbağa növlərindən götürdükləri 3 fərqli zəhəri təhlil edərək qurbağaların yedikləri qarışqalar sayəsində zəhərli kimyəvi maddələr ifraz etdiklərini aşkar ediblər. Bu qurbağalar qarışqaları həm qidalanmaq, həm də özlərini qorumaq üçün zəhər ifraz etmək məqsədilə yeyirlər (Researchers Pinpoint Source of Poison Frogs' Deadly Defenses).

Qızıl qurbağalar özlərini müdafiə etmək üçün zəhər ifraz etməyi haradan bilirlər?

Kimya biliyi olmayan qurbağalar qarışqaları yeyərək bu zəhəri ifraz edəcəklərini haradan bilirlər?

10 nəfəri öldürəcək gücdə zəhərin tərkib hissəsi olan qarışqalar necə olur ki, qurbağanın özünə zərər vermirlər?

Laboratoriyası olmayan, təcrübə keçirməyən qurbağalar yedikləri qarışqaların özlərinə zərər verməyəcəyini haradan bilirlər?

Ağlı və şüuru olmayan bu iki canlının bütün bu mürəkkəb prosesləri özləri qərar verdiklərini və həyata keçirdiklərini düşünmək qeyri-mümkündür. Qurbağaların bu üstün xüsusiyyətləri Allah`ın sonsuz yaratma gücünün bir dəlilidir. Allah bir Quran ayəsində bu həqiqəti belə bildirir:

***Ey Rəbbimiz! Öz peyğəmbərlərin vasitəsilə bizə vəd etdiklərini ver və qiyamət günündə bizi rüsvay etmə! Əlbəttə, Sən Öz vədinə xilaf çıxmazsan!" (Ali-İmran surəsi, 190)***